## Jurnalist Fuad Əlizadə koronavirusdan vəfat edib



**İqtisadçı-ekspert, ”Zerkalo” qəzetinin keçmiş əməkdaşı Fuad Əlizadə yeni növ koronavirus (COVID-19) infeksiyasından vəfat edib.**

Bu barədə APA-ya Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı deyib. ”Fuad Əlizadə ”Zerkalo”da şöbə müdiri olub. Son zamanlar isə CBC-də çalışırdı. O, bu gün səhər saatlarında dünyasını dəyişib”, - E. Şıxlı vurğulayıb.

*Qeyd edək ki, Fuad Əlizadə dekabrın 10-da koronavirusa yoluxub. O, ”Yeni Kinika”da müalicə alırdı.*

**Allah rəhmət eləsin!**

## Yeni il gecəsi qar gözlənilmir

**”Yeni ildə Bakı şəhərində qarın yağması nadir hadisədir”.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva mətbuat konfransında deyib.

O bildirib ki, ən soyuq hava 2019-cu ildə müşahidə olunub: ”Bu yeni il gecəsi qar gözlənilmir”.

Xidmət rəisi deyib ki, qarsız qarşıladığımız illərin sayına bir il də əlavə olunacaq: ”Bayramın ilk günləri - dekabrın 31-i və 2022-ci il yanvarın 1-2-də ölkə ərazisində hava şəraiti atmosfer təzyiqinin tədricən aşağı enməsi fonunda nisbətən sabit və əsasən yağmursuz keçəcək”.


№ 240 (5522), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 dekabr 2021-ci il (cümə axşamı)




## Xəstəxanaya yerləşdirmə və ölüm halları artır

ÜST: “Delta” və “omikron” ştamları yeni pandemiya dalğasına səbəb olacaq

**Koronavirusun ”delta” və ”omikron” ştamları yeni pandemiya dalğasına səbəb ola bilər.**

“Report” TASS-a istinadən xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Tedros Adanom Qebreyesus bildirib.

“Delta” və ”omikron” variantlarına görə yoluxma hallarının sayı artır, bununla da xəstəxanaya yerləşdirmə və ölüm halları artır.

ÜST rəhbəri deyib ki, xüsusi narahatlıq doğuran məqam ”omikron” variantının daha yoluxucu olmasıdır.

O, əlavə edib ki, peyvənd bərabərsizliyinə son qoyulması koronavirusun yeni variantlarından qorunmaqda əsas elementdir.



## Gələn ildən əmək pensiyasının minimum məbləği 240 manat olacaq

**Əmək pensiyasının minimum məbləği 2022-ci il yanvarın 1-dən 240 manat məbləğində müəyyən olunacaq.**

Bu, Prezident İlham Əliyevin dünən təsdiqlədiyi ”Əmək pensiyaları haqqında” qanuna dəyişiklikdə əksini tapıb.

Beləliklə, əmək pensiyasının minimum məbləği gələn ildən 20 faiz artırılacaq.

Hazırda əmək pensiyasının minimum məbləği 200 manatdır.

## Azərbaycan 21 dustağı İrana ekstradisiya edəcək



**“Azərbaycan 21 dustağı İrana təhvil verəcək”. APA-nın Tehran bürosunun məlumatına görə, bunu İranın Azərbaycandakı səfiri Abbas Musəvi deyib.**

Diplomat bildirib ki, İran XİN-in başçısı Hüseyn Əmir Abdullahiyanın Azərbaycana səfərindən sonra səfirliyin səyi və Azərbaycan rəsmilərinin humanistliyi ilə bu ölkədə həbsdə olan 21 İran vətəndaşı ölkələrinə təhvil veriləcək. Onlar yaxın günlərdə İrana göndəriləcək. Səfir qeyd edib ki, təhvil veriləcək dustaqlardan üçü qadındır.

# Bu dəfə Macarıstan vasitəçilik etdi

## 5 erməni hərbçi Ermənistana qaytarılıb



**Azərbaycan Respublikası humanizm prinsiplərini rəhbər tutaraq 29 dekabr 2021-ci il tarixdə Macarıstan Respublikasının vasitəçiliyi ilə 5 nəfər erməni əsilli şəxsi Ermənistan tərəfinə təhvil verib.**

Trend Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına istinadən xəbər verir ki, həmin şəxslər 2021-ci ilin 16 noyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədinin Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılan erməni əsilli hərbi qulluqçulardır.

Qeyd olunan 5 nəfər Ermənistan vətəndaşı, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları - 01.11.1995-ci il təvəllüdlü Abramyan Sarkis Arturi, 18.06.1991-ci il təvəllüdlü Xaçatryan Arman Vaçaqani, 08.01.1988-ci il təvəllüdlü Aqacanyan Vaqe Sasuni, 16.04.1992-ci il təvəllüdlü Xaçataryan Suren Levai və 04.10.1997-ci il təvəllüdlü Avetyan Aram Artemidir.

(səh.2)



## Siqaretin aksiz dərəcəsi artırılıb

**Gələn il yanvarın 1-dən siqaretə tətbiq olunan aksiz dərəcəsi artırılır.**

Bu, Prezident İlham Əliyevin dünən tətbiqi barədə fərman imzaladığı Vergi Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Beləliklə, tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə tətbiq olunan 35 manat aksiz dərəcəsi 38,5 manata qaldırılır.

Eyni zamanda qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarının 1000 ədədinə tətbiq olunan 12,9 manat aksiz dərəcəsinin 14 manat qaldırılması təklif olunur.

# Ordumuz Türkiyə modelinə uyğunlaşdırılır

İstifadə olunmuş raket və döyüş sursatlarının əvəzinə yeniləri alınıb

**“Azad olunmuş ərazilərdə 17 mindən artıq mina zərərsizləşdirilib”.**

Bunu Müdafiə Nazirliyində ilin yekunlarına dair keçirilən brifinqdə nazirliyin mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib. Qurum rəsmisi bildirib ki, carı ildə işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi və təhlükəsizliyin təmin olunması istiqamətində işlər aparılıb.

(səh.3)



## Son sutkada koronavirusa 530 nəfər yoluxub

8 nəfər vəfat edib, 1 209 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 530 yeni yoluxma faktı qeydə alınıb, 1 209 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 615 842 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 597 754 nəfər müalicə olunaraq sağalıb, 8 332 nəfər vəfat edib, aktiv xəstə sayı 9756 nəfərdir.

## Bakıda bəzi tikinti materiallarının qiyməti bahalaşıb



**Oktyabr ayında Bakıda bir sıra tikinti materiallarının qiyməti bahalaşıb, bir sıra materialların qiyməti isə sabit qalıb.**

Bu barədə Trend-ə ”MBA Group” konsaltinq şirkətindən məlumat verilib. Ötən ay daş məmulatlarının, dam örtüklərinin, qumun qiymətləri sabit qalıb. Dəmir məmulatlarının qiyməti 3,70 faiz, taxta məmulatlarının qiyməti 4,55 faiz, sementin qiyməti isə 2,76 faiz bahalaşıb. Bahalaşmanı bu məhsullara olan tələbatın artması ilə əlaqələndirirlər.



## “Tağıyev öz zamanında əfsanələşmiş şəxsiyyət idi"

Firdovsiyyə Əhmədova: “Lakin onun haqqında çəkiləcək serial real faktlara söykənməlidir”

(səh.4)

## “Vizual xəbərlərə tələbat var"

Vüsalə Mahirqızı: “Medianın İnkişafı Agentliyinin aktiv fəaliyyətini gördük”

(səh.4)



# Hərbçilər üçün nəzərdə tutulmuş mənzillər istifadəyə verilib

## Prezidenti İlham Əliyev yaşayış kompleksi ilə tanış olub





**Dekabrın 29-da Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Hövsan və Yasamal Yaşayış komplekslərində inşa edilmiş binalarda hərbçilər üçün nəzərdə tutulmuş mənzillər istifadəyə verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər iki yaşayış kompleksindəki mənzillərlə tanış olub.

Başa çatmaqda olan 2021-ci ilin son iş günlərindəyik. Amma bu o demək deyil ki, dövlət tədbirlərinin keçirilməsində hər hansı ixtisar var. Onu da nəzərə almaq lazımdır ki, təkcə dekabr ayında Prezidentin gündəlik fəaliyyət xronikasında 12 rəsmi qəbul, Quba, Hadrut və Şuşa olmaqla 2 region səfəri, Belçika və Rusiyaya xarici səfərlər daxildir. Hava və avtomobil yolları ilə qət edilən ümumi məsafə isə 15 min kilometrdən artıqdır.

Qeyd edək ki, Prezident İlham Əliyevin fəaliyyətində diqqəti çəkən amillərdən biri gərgin iş qrafikinə rəğmən, görülən işlərlə yerindəcə tanış olmaqdır. Bu amil xüsusilə sosial layihələrdə özünü daha qabarıq büruzə verir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il tarixli Fərmanına əsasən, 20 il və daha çox qüsursuz xidmət edən hərbi qulluqçular dövlət vəsaiti hesabına mənzillə təmin olunurlar. İndiyədək 2208 hərbçi bu təşəbbüsdən faydalanıb.

Yeni 2022-ci ili daha 130 hərbçi ailəsi öz mənzilində qarşılayacaq. Onlardan 48-i Mənzil İnşaatı Dövlət Agentliyinin Hövsan Yaşayış Kompleksində mənzillə təmin edilib.

Dövlətimizin başçısı Hövsan Yaşayış Kompleksindəki mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Sonra Prezident İlham Əliyev MİDA-nın Yasamal Yaşayış Kompleksinə gəldi. Bu kompleksdə isə 82 hərbçi ailəsinə mənzil verilib. Dövlətimizin başçısı mənzillərə baxdı.

Mənzillər tam təmirlidir, mətbəx mebeli ilə təchiz olunub. Azərbaycan belə dövlət proqramının icra edildiyi nadir ölkələrdəndir.

Ümumiyyətlə, ölkəmizdə ordu quruculuğu prosesində hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində təqdim olunan növbəti mənzillər bunun əyani təsdiqidir.

# Özəl telekanallara birdəfəlik maliyyə yardımı ayrılıb

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikasında fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki ilə və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasına 4 milyon manat ayrılıb. Maliyyə Nazirliyi bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

# Yanvarın 1-dən hibrid avtomobillərin satışı ƏDV-dən azad edilir

**Gələn il yanvarın 1-dən Azərbaycanda elektrik mühərriki ilə işləyən avtomobillərin satışı ƏDV-dən azad edilir.**

Bu, Prezident İlham Əliyevin dünən imzaladığı Vergi Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

İndiyədək elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ƏDV-dən azad idi. Bundan sonra elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ilə yanaşı, satışı da ƏDV-dən azad edilir.

Həmçinin, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı, habelə elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilir.



# Xəzərin səviyyəsi ən çox bu il düşüb

**Xəzər dənizinin səviyyəsi 2021-ci ildə 35 sm aşağı düşüb.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat konfransında Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva bildirib.

**Nazirlik rəsmisi suyun səviyyəsinin aşağı düşməsinin bəzi ölkələri də narahat etdiyini deyib:**

"Dəniz suyunun aşağı enməsi xəzəryanı ölkələr üçün narahatlıq doğurur. Xəzər dənizinin səviyyəsi 2005-ci illə müqayisədə 119 sm enib. Xəzər dənizinin aşağı enmə səviyyəsi ən çox bu il qeydə alınıb. Gələn ilin mart ayında nazirliyin təşəbbüsü ilə konfrans keçiriləcək və alman mütəxəssisləri və s. iştirakı ilə bağlı bu istiqamətdə elmi bazanın yaradılması məsələsinə diqqət yetirəcəyik".





# Yanvarın 1-dən...

## Azərbaycanda sığorta ödənişinin verilməməsinə görə cərimə müəyyənləşir

**Gələn il yanvarın 1-dən dövlət icbari şəxsi sığorta haqqında qanunvericiliyin pozulmasına görə cərimə müəyyənləşir.**

Bu, Prezident İlham Əliyevin dünən tətbiqi barədə fərman imzaladığı Xətalar Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Beləliklə, sığortalı tərəfindən dövlət icbari şəxsi sığorta haqqında qanunvericiliyin pozulmasına, yəni üzrlü səbəbləri olmadan sığortaolunanı dövlət icbari şəxsi sığorta edilməməsinə və qanunla müəyyən edilmiş qaydada və müddətdə dövlət icbari şəxsi sığorta haqqını sığortaçıya ödəməməsinə, hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödənilmiş sığorta haqları və sığorta olunanlar barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada sığortaçıya hesabat verilməməsinə görə vəzifəli şəxslər 200 manat məbləğində cərimə ediləcək.

Sığortaçı tərəfindən sığorta ödənişi almaq hüququ olan şəxsə üzrlü səbəblər olmadan qanunla müəyyən edilmiş qaydada və müddətdə sığorta ödənişinin verilməməsinə görə vəzifəli şəxslər 100 manat məbləğində cərimə ediləcək.

# Türkiyə "Turkovac"ı yaxın zamanda Azərbaycana göndərməyi planlaşdırır



**"Turkovac"ın yaxın zamanda Azərbaycana da çatdırılmasını planlaşdırırıq.**

Trend-in məlumatına görə, bunu Türkiyə Səhiyyə İnstitutlarının prezidenti Erhan Akdoğan deyib.

Onun sözlərinə görə, daxili tələbatı ödəyəcək qədər dozanı mütləq istehsal edəcəklər.

"Amma bununla yanaşı ehtiyacı olan ölkələrə verilməsi istiqamətində də fəaliyyətlərimiz davam edir. "TURKOVAC"ın kliniki sınaqları çərçivəsində bir neçə ay əvvəldən Azərbaycan, Pakistan, Qırğızıstan kimi ölkələrlə ortaq elmi tədqiqatlara dair fəaliyyətlər icra edirdik. Ötən həftələrdə Azərbaycanda "Turkovac"la bağlı konkret hazırlıqlarımızı tamamlamışıq. Yaxın zamanda Azərbaycana da yerli vaksinimizi çatdırmağı planlaşdırırıq".

*Qeyd edək ki, dekabrın 22-də Türkiyədə koronavirusa qarşı yerli "TURKOVAC" vaksinin tətbiqinə icazə verilib və kütləvi istehsalına başlanılıb.*

# Gürcüstan parlamentinə yeni spiker seçilib

**Gürcüstan parlamenti yeni spiker vəzifəsində Şalva Papuaşvilinin seçilməsini təsdiq edib.**

Trend-in məlumatına görə, hakim "Gürcü arzusu - Demokratik Gürcüstan" partiyasının namizədinin lehinə 88 deputat, əleyhinə bir nəfər səs verib. Ş.Papuaşvili bu vəzifədə Kaxa Kuçavanı əvəz edəcək.

*Qeyd edək ki, Kaxa Kuçava deakabrın 24-də istefa verməyib.*

# Bu dəfə Macarıstan vasitəçilik etdi

## 5 erməni hərbçi Ermənistana qaytarılıb



**Azərbaycan Respublikası humanizm prinsiplərini rəhbər tutaraq 29 dekabr 2021-ci il tarixdə Macarıstan Respublikasının vasitəçiliyi ilə 5 nəfər erməni əsilli şəxsi Ermənistan tərəfinə təhvil verib.**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası xəbər verir ki, həmin şəxslər 2021-ci ilin 16 noyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədinin Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılan erməni əsilli hərbi qulluqçulardır.

Qeyd olunan 5 nəfər Ermənistan vətəndaşı, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları - 01.11.1995-ci il təvəllüdlü Abramyan Sarkis Arturi, 18.06.1991-ci il təvəllüdlü Xaçatryan Arman Vaçaqani, 08.01.1988-ci il təvəllüdlü Aqacanyan Vaqe Sasuni, 16.04.1992-ci il təvəllüdlü Xaçataryan Suren Levai və 04.10.1997-ci il təvəllüdlü Avetyan Aram Artemidir.

Bildirilir 2021-ci ilin 26 noyabr, 4 və 19 dekabr tarixlərində də Azərbaycan qarşı tərəfə 21 nəfər erməni əsilli hərbi qulluqçunu qaytarmışdır.

Bu dəfə prosesdə məhz Macarıstanın vasitəçilik etməsi maraq doğuran hadisədir.

**Politoloq Tofiq Abbasov "Şərq"ə açıqlamasında bildirib ki, Macarıstanla Azərbaycan mühüm strateji tərəfdaşdır:**

"Macarıstan bildiyiniz kimi həm Avropa İttifaqının üzvüdür, digər tərəfdən Türk Əməkdaşlıq Təşkilatının tərkibində müşahidəçi statusuna malik bir dövlətdir. Macarıstanla Azərbaycanın çox genişmiqyaslı münasibətləri var. Eyni zamanda xatırladaq ki, Ermənistanla Macarıstan arasında Ser Sarkisyanın qərarı ilə diplomatik münasibətlər dayandırılmışdı. Çünki Ramil Səfərov məsələsində Macarıstan onu Azərbaycana ekstradisiya etdi, həmin vaxt təyyarə göyə qalxan kimi Ermənistanın prezidenti Ser Sarkisyan Macarıstanla bütün diplomatik və digər əlaqələrin dayandırıldığını xəbər verdi və bununla bağlı sərəncam imzaladı. Ümumiyyətlə götürdükdə Ermənistan bütün müstəvilərdə yarıtmaz və anlaşılmaz siyasət yeridir. Ermənistan elə bilir ki, bütün dünya birliyi, onun ayrı-ayrı üzvləri hamısı ermənilərə borcludurlar. Nəyə görə, o bəlli deyil.

Macarıstan sivil siyasət yeridən ölkələrdəndir və çalışır ki, birincisi onun beynəlxalq imicinə Ermənistan kimi bir ölkə xələl gətirməsin və problem yaratmasın. Bu, Macarıstanın xoş niyyətindən xəbər verən bir addımdır.

Biz Azərbaycan olaraq dəfələrlə Ermənistanın rəhbərlərinə müraciət edirdik ki, sülh yolu ilə bu məsələnin həll olunmasına nail olaq. Müharibə, itkilər olmasın. Ancaq gördük ki, Ermənistan bizi eşitmir. Hakimiyyət dəyişiklikləri baş verdi, ancaq yenə Ermənistanın münasibətində mahiyyət dəyişilmədi.

**Politoloq Macarıstanın vasitəçilik addımının təqdirəlayiq hal olduğunu vurğulayıb:**

"Macarıstanın bu təşəbbüsü müsbət haldır. Beynəlxalq birlik Azərbaycanın sağlam mövqedən çıxış etməsinin şahidi oldu. Digər tərəfdən Brüsseldə görüşlər zamanı İlham Əliyevin mövqeyi birmənalı dəstəkləndi. Avropa İttifaqının prezidenti Şarl Mişel İlham Əliyevə dəstəyini bildirdi. Ona görə də Ermənistan bunların hamısını görür və digər ölkələr də çalışırlar ki, ağır vəziyyətdə olan Ermənistana kömək əlini uzatsınlar və onun problemlərinin həllində dinamika yaratsınlar. Macarıstan Azərbaycanla yaxşı münasibətlərdədir və ola bilsin ki, Macarıstan rəsmən Azərbaycandan xahiş edib ki, bu erməni diversantları Ermənistana geri qaytarsın.

Burada biz görürük ki, yenə də Azərbaycan humanistlik göstərir və Macarıstanın da bu xahişini nəzərə alaraq 5 nəfər hərbçinin Ermənistana qaytarılsına razılıq verir. İndi bu humanistlikdən İrəvan hansı dərsi alacaq, ümumiyyətlə, bu onlarda hansı əhvali-ruhiyyə yaradacaq, bu ikinci məsələdir. Ermənistan anlamalıdır ki, Azərbaycan güclü dövlətdir. Güclü təkcə hərbi, siyasi anlamda deyil. Güclü həm də mənəvi cəhətdən yetkin və hazırlıqlı olur. Həm də güzəştə getməyi bacarır. Yəni biz burada ermənilərə güzəştə gedirik. Macarıstan bu proseslərdə humanistlik göstərir. Ermənistanın da bu proseslərdən düzgün nəticə çıxarması son dərəcə vacibdir. Birincisi hədlərini aşmasınlar, digər tərəfdən də anlasınlar ki, onlara heç kim borclu deyil. Əgər yaxşılıq edirlərsə, dəstək göstərirlərsə bu dəstək göstərən tərəflərin böyüklüyündən, alicənablığından irəli gəlir".

**Sənan İsmayıl**

# Erməni əsilli mülki şəxs Ermənistan tərəfinə təhvil verilib

**Dünən 1 nəfər erməni əsilli mülki şəxs, 24.04.1971-ci il təvəllüdlü Verdyan Armen Abrikoviç yolu azaraq Azərbaycan hərbçilərinin nəzarətində olan əraziyə daxil olub.**

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından verilən xəbərə görə, Azərbaycan humanizm prinsiplərinə sadiq qalaraq həmin şəxsi Ermənistana təhvil verib.

*Qeyd edək ki, cari ilin 26 noyabr tarixində də daha bir erməni əsilli mülki şəxs qarşı tərəfə qaytarılıb.*

# Paşinyan Bakının mövqeyini tam dəstəklədi

## Ancaq heç bir Qərb mediası Baş nazirin Qarabağın taleyi ilə bağlı fikrini tirajlamayıb



**"Paşinyanın "Qarabağ Azərbaycan ərazisidir və status Azərbaycan Konstitusiyasına əsasən həll edilməlidir" fikri təkcə Araik Arutyunyanı özündən çıxarmayıb.**

Baş nazir dərhal terrorçu "prezident"in hədələrinə feysbukda açdığı canlı yayımla cavab verib və konkret qeyd edib ki, "delimitasiya, demarkasiya da bitməli və bizə yalnız və yalnız kommunikasiyalar lazımdır, həm də hamıdan daha çox buna ehtiyacımız var" arqumenti ilə cavab verib".

**Bu barədə "Şərq"ə beynəlxalq məsələlər üzrə ekspert, STM Mətbuat Xidmətinin rəhbəri Əziz Əlibəyli bildirib. O qeyd edib ki, Ermənistanın Baş naziri bu addımı ilə Azərbaycan rəhbərinin mövqeyini tam dəstəklədiyini də ortaya qoyub:**

"Beləliklə, Nikol Paşinyan şahmat gedişi edərək qondarma rejimi Rusiyanın qucağına, dəstəyini isə Qərbin ofislərinə itələyib.

Məhz bu "xod"dan sonra məlum olub ki, Paşinyanın əleyhdarı təkcə Xankəndidə deyilmiş.

Belə ki, heç bir qərb mediası Nikol Paşinyanın Qarabağın taleyi ilə bağlı fikrini tirajlamayıb və konkret üstündən sükutla keçərək, Qarabağın statusunun tanınması, müstəqilliyin qəbul edilməsinə çağırışlara başlayıblar.

Bu, ikiüzlü, riyakar və paralı köpəklərin məqsədi hazırda Azərbaycanı, Rusiyanı və Ermənistanı birlikdə hədəfə almaqdır. İndi gəlin görək, Əliyev və Putinin taxtasında hansı gedişlər var...".

**Sücayət Mehti**

# Mədəniyyət Nazirliyinin aparat rəhbəri işdən çıxıb

## O, bu barədə sosial şəbəkə hesabında məlumat verib



**Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə öz ərizəsi ilə işdən ayrılıb.**

O, bu barədə sosial şəbəkə hesabında məlumat verib.

V.Eyvazzadə fəaliyyətini digər istiqamətlərdə fərqli statusda davam etdirəcəyini açıqlayıb.

"Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının rəhbəri olaraq komandamızla birlikdə ölkəmizdə yaradıcılıq, innovasiya və texnologiyaların uzlaşdığı bir sahənin-yaradıcı sənayelərin real inkişafına, həmçinin ölkəmizin yumşaq güc siyasətinin beynəlxalq müstəvidə həyata keçməsinə müxtəlif platformalar vasitəsilə dəstək olmağa davam edəcəyik", - deyə V.Eyvazzadə bildirib.

# Ordumuz Türkiyə modelinə uyğunlaşdırılır

## İstifadə olunmuş raket və döyüş sursatlarının əvəzinə yeniləri alınıb



**“Azad olunmuş ərazilərdə 17 mindən artıq mina zərərsizləşdirilib”. Bunu Müdafiə Nazirliyində ilin yekunlarına dair keçirilən brifinqdə nazirliyin mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib. Qurum rəsmisi bildirib ki, carı ildə işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi və təhlükəsizliyin təmin olunması istiqamətində işlər aparılıb.**

Qeyd olunub ki, 2021-ci il ərzində Mühəndis Qoşunları tərəfindən azad olunan ərazilərimizdə nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin döyüş mövqelərinə yeni təminat yolları çəkilir. Mina təmizlənmə işlərində əsas səylər yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Anar Eyvazov bildirib ki, cari il ərzində 900-dək komanda-qərargah, taktiki, taktiki xüsusi və simulyasiya təlimləri yüksək texnologiyanın tətbiqi ilə həyata keçirilib. O bildirib ki, bundan başqa, hərbi qulluqçularımız Rusiya, Qazaxıstan və İranda keçirilən beynəlxalq səviyyəli yarışlarda, eləcə də Türkiyə, Pakistan, Gürcüstan və ölkəmizdə keçirilən bir sıra müxtəlif təyinatlı beynəlxalq təlimlərdə iştirak edib: ”Müdafiə Nazirliyinin hərbi hissələrində müxtəlif təyinatlı 400-ə yaxın yeni hərbi infrastruktur obyekti istismara verilib. Bununla bölmələrdə qoşun xidmətinin və döyüş növbətçiliyinin təşkil edilməsi, o cümlədən şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsi üçün münbit şərait yaradılıb. Bir sıra obyektlərin inşası hazırda davam etdirilir”.

**“Bu günə qədər 92 min medal və orden təhvil verilib”**

Müdafiə Nazirliyinin rəsmisi qeyd edib ki, Azərbaycan Ordusunun Vətən müharibəsində, həmçinin 2021-ci ilin noyabrın 16-da Kəlbəcər və Laçın istiqamətində erməni təxribatlarının qarşısını alarkən həyata keçirilən əməliyyatlarda iştirak edərək fərqlənən hərbi qulluqçular 154 mindən artıq orden və medallarla təltif olunub: ”Bu günə qədər 92 min medal və orden aidiyyəti üzrə təhvil verilib. Digər orden və medalların yoxlanması və bölüşdürülməsi prosesi davam etdirilir”.

**“Gələn il hərbi əməkdaşlıq sahəsində bir sıra ölkələrlə birgə təlimlər keçiriləcək”**

Nazirlik təmsilçisi bəyan edib ki, gələn il hərbi əməkdaşlıq sahəsində bir sıra ölkələrlə birgə təlimlər keçiriləcək: ”2022-ci ildə də beynəlxalq hərbi əməkdaşlıq sahəsində bir sıra ölkələrlə təlim və treninqlərin keçirilməsi planlaşdırılır. Azərbaycan hərbçilərinin Türkiyə ilə ikitərəfli təlimlərdə, NATO proqramları çərçivəsində, o cümlədən ”Beynəlxalq Ordu Oyunları”nda iştirakı da nəzərdə tutulur”. MN rəsmisi deyib ki, cari il ərzində ölkə daxilində 27, xaricində isə 178 beynəlxalq kursda şəxsi heyətin iştirakı təmin edilib: ”İkitərəfli əməkdaşlıq planları və NATO ilə Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində xarici ölkələrdə və Azərbaycanda ümumilikdə 522 beynəlxalq tədbir keçirilib. NATO-nun Əfqanıstanda keçirdiyi ”Qətiyyətli Dəstək” Missiyasında iştirak edən Azərbaycan Ordusunun sülhməramlı kontingentinin iştirakı cari ilin avqust ayında sona çatdırılıb”.

**“Komandoların Türkiyədə müvafiq hazırlıq kurslarını keçməsi təmin edilib”**

Anar EyvazovAzərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışıb: ”Azərbaycan Ordusunun müasir orduların modelinə uyğun yeni inkişaf mərhələsinə keçməsi üçün təşkilati-ştat strukturu təkmilləşdirilərək Quru Qoşunları Komandanlığı və yeni hərbi birlik yaradılıb. Azad edilmiş ərazilərdə dislokasiya olunmuş bölmələrin əməliyyat və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, həmçinin xüsusi şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə əməliyyat (komando) hərbi hissələri yaradılıb. Komandoların Türkiyədə müvafiq hazırlıq kurslarını keçməsi təmin edilib. Bu proses hazırda da davam etdirilir. Vətən müharibəsində əldə edilən təcrübələrin təhlili əsasında Türkiyə Silahlı Qüvvələrinin də modeli nəzərə alınaraq yeni döyüş təlimatları hazırlanır. Türkiyə Silahlı Qüvvələri zabitlərinin iştirakı ilə təşkil edilən bir çox kurslara xeyli sayda hərbi qulluqçunun cəlb edilməsi mütəxəssis hazırlığını da yeni səviyyəyə yüksəldib. Cari il ərzində Azərbaycan Ordusunda bir sıra istiqamətlər üzrə tədbirlər icra edilib. Əsas diqqət daim döyüşə hazırolma və silahlı qarşıdurma kəskinləşdiyi zaman yarana biləcək vəziyyətdə adekvat cavab tədbirlərinin görülməsinə yönəldilib”.

**“Hərbi hissələrin sosial-məişət şəraitinin yaxşılaşdırılması prioritet məsələlərdəndir”**

Polkovnik-leytenant vurğulayıb ki, Azərbaycan Ordusunun maddi-texniki təminatı məsələləri də daim diqqət mərkəzindədir: ”Xüsusilə, azad olunmuş ərazilərdə dislokasiya olunan hərbi hissələrin sosial-məişət şəraitinin yaxşılaşdırılması prioritet məsələlərdəndir. Prezident, Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçuların döyüş hazırlığını yoxlamaq və onların sosial-məişət şəraiti, eyni zamanda aparılan tikinti-quruculuq işləri ilə tanış olmaq məqsədilə azad olunmuş ərazilərə cari il ərzində 30 dəfədən artıq səfər edib. Yüksək dağlıq ərazilərdə yerləşən bölmələrdə fasiləsiz elektrik enerjisi, isti və soyuq su xətləri çəkilib, 6 aylıq ərzaq, yanacaq ehtiyatı yaradılıb və qış mövsümü ilə əlaqədar bütün şəxsi heyət isti geyimlə təmin edilib”. Anar Eyvazov qeyd edib ki, Vətən müharibəsində sərf olunmuş raket və döyüş sursatlarının əvəzinə yeniləri alınaraq qoşunlara çatdırılıb, hazırda bütün birləşmə və hissələr döyüş sursatları ilə tam təmin olunub.

**İsmayıl**



# İrəvan Xankəndi prosesindən çəkilməyə çalışır

## Bu vəziyyət Azərbaycanla daha tez anlaşma ortamı yarada bilər

**İsmayıl Qocayev**

**“Ermənistan Xankəndi və ətrafında yaşayan ermənilərin problemini öz üzərindən tamamilə atmağa çalışır”.**

**Bu barədə ReAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib.**

**Partiya funksioneri deyib ki, rəsmi İrəvan Xankədi və ətrafının de-yure Azərbaycan ərazisi olduğunu anlayır:** ”Bölgəyə de-fakto Rusiya nəzarət edir, amma Xankəndini və ətrafında yaşayanların maddi təminatını Ermənistan ödəyir. 2022-ci ildə 300 milyon dollara yaxın maddi yardımın göstərilməsi Ermənistan büdcəsində öz əksini tapıb. Paşinyan və komandası onların sözünə baxmayan, daha çox Rusiya və Kremlin sözçülərinə bağlı olan qondarma rejimə pul xərcləmək istəmir. 2022-ci ildə Ermənistan büdcəsi 4 mlrd. dollar olacaq. Bunun 300 mln. dollarını Araikin dəstəsinə vermək xoş qarşılanmır. Bu vəziyyətin müsbət və mənfi tərəfləri var. Müsbət tərəfi odur ki, Ermənistan Qarabağ prosesindən çəkilərək Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmağı, Gürcüstan üzərindən dolayı yolla Qərbə çıxmaqdansa, Türkiyə üzərindən birbaşa Qərbə çıxış əldə etməyi düşünür. Bu yolun daha uğurlu olduğuna inanır, çünki son 200-250 il Rusiyanın maşası kimi say və nüfuz itiriblər. İndi Ermənistan cəmiyyətində anti-Rusiya fikirləri çox güclüdür. Paşinyan və komandası özbaşına Qərbyönümlü deyil, onlar cəmiyyətdə olan münasibətin siyasi tərcüməçisidir: ”Rəsmi İrəvanın Xankəndi prosesindən çəkilməsi istəyi Azərbaycanla daha tez anlaşma ortamı yarada bilər. Ermənistan Qarabağ məsələsini üzərindən atıb iqtisadi yüksəlişə köklənsə, cəmi 5 ildən sonra büdcəsini 2 dəfə artıra bilər”.

**N.Cəfərli məsələnin mənfi tərəflərinə də diqqət çəkib:** ”Rusiya Xankəndi və ətrafında yaşayan erməni əsilli azərbaycanlıların Azərbaycana inteqrasiyasında maraqlı deyil, bunu istəmir. Ermənistan prosesdən çəkildikcə Xankəndi və ətrafında yaşayan erməni əsilli azərbaycanlılara daha çox yardım, iqtisadi fürsətlər, sosial layihələr təqdim etməklə onları özlərinə bağlayacaq. Bu gün Xankəndidə olan qondarma qurumu de-fakto tanıdığı kimi, münasibətləri daha da dərinləşdirəcək. Günün birində rejimi de-yure tanıya, qondarma qurumun geydirmə ”parlamentinin” qərarı ilə orada bir ömür qalması ilə bağlı qərar çıxartdıra bilər. Bu, böyük təhlükədir”.



# Azərbaycan bütün müzakirələrə hazırdır

## İctimaiyyət nümayəndələrinin görüşü sülh quruculuğuna yardım göstərə bilər

**İsmayıl Qocayev**

**Xəbər verdiyimiz kimi, dekabrın 23-24-də Moskva şəhərində Azərbaycan və Ermənistan ictimaiyyətinin nümayəndələri arasında görüş keçirilib. Rusiya prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyun təşəbbüsü ilə baş tutan görüşdə iki xalq arasında gərginliyi azaltmaq istiqamətində atılacaq addımlar müzakirə edilib.**

Rusiya paytaxtındakı görüşə Azərbaycandan Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, kinorejissor Ayaz Salayev və Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova qatılıblar. Ermənistanı isə İrəvan Dövlət Tibb İnstitutunun rektoru Armen Muradyan, Dövlət Kukla Teatrının bədii rəhbəri Ruben Babayan, Stanislavski adına teatrın direktoru Marianna Mxitaryan və rejissoru Harutyun Xaçatryan təmsil edib. Ermənilərlə görüş haqqında mətbuata açıqlama verən Fərhad Bədəlbəyli əsasən humanitar problemlərdən danışıldığını, ümumən gərgin atmosferdə keçdiyini bildirib: ”Qarabağdan danışmadıq. Əsas məsələ Azərbaycanda saxlanan erməni əsgərlər haqqında idi. Biz isə Azərbaycan torpaqlarında qalmış minlərlə mina problemini qaldırdıq. Bu iki problem üzərində müzakirə apardıq. 12 il əvvəlki görüşdə ermənilər bizə deyirdilər ki, ”gəlin dost olaq”, ”müharibəni yaddan çıxaraq”. İndi biz deyirik ki, müharibə qurtardı, gələcəkdə bir-birimizlə normal yaşayaq. Dost olmasaq da, normal, sivil qonşu kimi yaşaya bilərik. Əsas məsələ budur”.

**Müharibədən sonra Azərbaycan-Ermənistan ictimaiyyət nümayəndələrinin bir araya gəlməsini ”Şərq”ə şərh edən siyasi şərhçi, ”Prioritet” Sosial İqtisadi Araşdırmalar Mərkəzi (SİAM) İctimai Birliyinin sədri Zaur İbrahimli deyib ki, Prezident İlham Əliyev 15 dekabrda Brüsseldə keçirilən danışıqlarda bir daha bəyan etdi ki, Bakı İrəvanla sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazırdır. QHT rəhbərinin sözlərinə görə, Ermənistan baş naziri də danışıqlardan sonra bu barədə açıqlamalar verdi:** ”Postkonflikt dövrünün problemlərinin həlli, regionda davamlı sülhün əldə olunması üçün yekun müqavilənin imzalanması zəruri şərtdir. Sülh müqaviləsinin fundamental şərti Azərbaycanın ərazi bütövlüyü və BMT tərəfindən tanınmış sərhədləri çərçivəsində suverenliyidir. Azərbaycan öz sərhədləri daxilində məskunlaşmış ermənilərə təhlükəsizlik və Ermənistanla kommunikasiyanın təmin edilməsinin təminatını verməyə hazırdır. Azərbaycanın Ermənistan da daxil heç bir ölkəyə ərazi iddiaları yoxdur. Siyasi və hüquqi çərçivədə Ermənistanla diplomatik və digər kanallarla müzakirələr aparılması vacibdir. Sülh müqaviləsinin hazırlanması və imzalanması üçün diplomatik səylərlə yanaşı, ictimaiyyət nümayəndələrinin görüşü də mühümdür. Bu, dialoq mühitinin yaradılmasına önəmli töhfə verə bilər”.

Z.İbrahimli vurğulayıb ki, Azərbaycan öz ərazilərini işğaldan azad edib: ”Rəsmi Bakı müharibədən sonra yaranmış yeni reallıqlar kontekstində Ermənistanın konstruktiv mövqedən çıxış etməsinə kömək edəcək bütün müzakirələrə açıqdır. Ermənistan ictimaiyyəti sülh, anlaşma məsələləri üzərində, Azərbaycan torpaqlarının işğalının faciəli nəticələri haqqında düşünməlidir. Erməni cəmiyyəti tarixi seçim qarşısındadır - müharibə, yaxud davamlı sülh istiqamətində çalışmaq. Təəssüf ki, son otuz ildə Azərbaycanın sülh çağırışları Ermənistan cəmiyyətində də dəyərləndirilməyib. Erməni cəmiyyəti təcavüzkar siyasətə dəstək verib. İctimaiyyət nümayəndələrinin görüşü bu cür məsələlərin müzakirəsi, humanitar problemlərin çözülməsi, sülh quruculuğu ilə əlaqədar digər məsələlərin həllində yardım göstərə bilər. Ermənilər Azərbaycanın qətiyyətli mövqeyini, sülhə hesablanmış xoş niyyətini aydın başa düşməlidir. Bu mesajın verilməsi, izahı və təşviq edilməsində ictimaiyyət nümayəndələrinin müzakirələri əsas vasitələrdən biridir”.

# Paşinyanın separatçılara "savaş" açması iki hədəfə hesablanıb

## “Baş nazir öncədən məsuliyyəti rusların üzərinə yükləyir. Oyundan çəkilməklə Bakı və Moskvanın üz-üzə gəlməsinə meydan yaradır”

**Ermənistan Baş naziri Nikol Paşinyanın ”Qarabağın statusu Azərbaycan Konstitusiyasına uyğun həll edilməlidir” sözlərindən sonra Xankəndidəki separatçılarla İrəvan arasında qarşıdurma böyüyüb.**

Erməni tərəfi də etiraf edir ki, proses İrəvanın separatçıların arxasından çəkilməsinə, Ermənistanın Azərbaycanla yekun sülh sazişi imzalamasına doğru gedir. Ekspertlərin fikrincə, Nikol Paşinyanın həqiqəti dilə gətirməsində daha çox öz maraqları rol oynayır. Baş nazir ilk növbədə Ermənistan siyasətindən Qarabağ kartını çıxarır. Digər tərəfdən Türkiyə və Azərbaycanla münasibətlərin qurulması və kommunikasiyaların açılması ilə qazanacağı iqtisadi dividendlərdə əlavə problem istəmir. Eyni zamanda separatçıları rusların ”qucağına itələyir”, problemi Bakı və Moskvanın birbaşa məsələsinə çevirir.



“Rus icması” senarisinə səssiz qalmaq risklidir: “Bununla bağlı ilkin olaraq üç istiqamətdə hərəkət etmək olar”

**Siyasi şərhçi Asif Nərimanlı “Şərq”ə açıqlamasında bildirib ki, Nikol Paşinyanın separatçılara “savaş” açması iki hədəfə hesablanıb. Analitikin sözlərinə görə, rəsmi İrəvan Qarabağdakı ermənilərdən ”dövlət” düzəldə bilməyəcəyini anlayır:** ”Paşinyan öncədən məsuliyyəti rusların üzərinə yükləyir. Oyundan çəkilməklə Bakı və Moskvanın üz-üzə gəlməsinə meydan yaradır. Baş nazir bu gedişlə prosesləri də qabaqlayır. Sərhədin delimitasiya və demarkasiyası Ermənistan və Azərbaycanın qarşılıqlı olaraq dövlət sərhədlərini tanıması, həm də İrəvanın Qarabağı Azərbaycan ərazisi kimi qəbul etməsi deməkdir. Bu, Azərbaycan sərhədləri daxilindəki erməni qoşunların çıxarılması ilə də nəticələnə bilər. Rəsmi İrəvan oyundan kənar vəziyyətə düşməmişdən öncə separatçılarla körpüləri yandırır. Ermənistanın oyundan kənarlaşması prosesin müsbət və mənfi istiqamətdə inkişafını vəd edir. Müsbət perspektiv odur ki, Qarabağda Bakı-Ankara və Moskva olmaqla güc balansı ikinin birə dəyişir. Həmişə Ermənistanı qarantyor kimi qəbul edən erməni əhalinin seçimi qətiləşir. Onlar ya bölgəni tərk etməli, ya da Azərbaycan bayrağı altında yaşamağa razılıq verməlidirlər”.

A.Nərimanlıya görə, sərhədin müəyyən edilməsindən sonra Bakının separatizmə qarşı mübarizə hüququndan daha aktiv istifadə etmək imkanları genişlənəcək: ”Mənfi nüanslar isə odur ki, Moskva ermənilərin tək ”müdafiəçisi” rolunda bölgədə qalma müddətini uzatmaq istəyə, etnik separatizmi yenidən körükləyə, bölgədə Azərbaycan idarəçiliyinin bərpasını əngəlləyə bilər. Qarabağda ”rus icması” senarisinin aktivləşdirilməsi bundan xəbər verir. Donbassdan fərqli olaraq Qarabağda ”rus icması” senarisinin icrası imkanları zəif görünür. Bölgədə rusların sayı çox azdır. Bakının bölgənin gələcəyi ilə bağlı mövqeyi və Ankaranın dəstəyi Moskvanı iki vacib oyunçunun maraqlarını nəzərə almağa vadar edir. Bakı-Ankara-Moskva üçlüsünün regional əməkdaşlıq planları fonunda problemin həlli imkanları tükənməyib. Lakin Moskva ”rusları qorumaq” senarisi üzərindən alternativlər də hazırlayır. Çünki bölgədə təkcə ”erməniləri qorumaq” arqumenti çox da keçərli deyil. Bu, Bakıya qarşı siyasi qazanc əldə etmək üçün istifadə ediləcək kartlardan biri olacaq. Məsələn, Azərbaycanın Avrasiya İttifaqına daxil olması kimi istəklərdə bu kart işə salına bilər. Bu perspektiv Paşinyan-Araik toqquşmasında rus izinə də diqqət çəkir. Mümkündür ki, ruslar sərhədin müəyyənləşməsindən öncə ”ipləri əlinə” alır. İrəvanla separatçıların ”toqquşmasından” sonra baş separatçı Araik Arutyunyanın ”Qarabağın rus icması nümayəndələri” ilə görüşü də bu kontekstdə təsadüfi deyil və bu senarinin artıq işə salındığını göstərir”.

**Ekspertin qənaətincə, ”rus icması” senarisinə səssiz qalmaq risklidir:** ”Bununla bağlı ilkin olaraq üç istiqamətdə hərəkət etmək olar. Birincisi, ”rus icması” adından baş separatçı ilə müzakirə aparmaq üçün Rusiyadan gələnlər ”qara siyahıya” salınmalıdır. İkincisi, Azərbaycanın rus icması separatçıların ”rus icması” kartına etiraz etməli, Qarabağdakı rus əsilli insanları öz ətraflarına çəkməli, onları Azərbaycanın ”yolunu azmış vətəndaşları” sırasından çıxarmalıdır. İcma bu prosesdə öndə hərəkət edə bilər. Üçüncüsü isə Bakı ən azı diplomatik kanallarla Moskvaya mövqeyini bildirməlidir”.

**İsmayıl Qocayev**

# "Tağıyev öz zamanında əfsanələşmiş şəxsiyyət idi"

## Firdovsiyyə Əhmədova: "Lakin onun haqqında çəkiləcək serial real faktlara söykənməlidir"



"Yaxşı olar ki, filmdə onun ictimaiyyətə məlum olmayan fəaliyyəti də işıqlandırılsın"

**Böyük messenat, görkəmli ictimai xadim Hacı Zeynalabdin Tağıyev haqqında serial çəkiləcək. Bu haqda Mədəniyyət naziri Anar Kərimov "Mədəniyyət Nazirliyi: 2021-ci il üzrə Hədəflər və Nəticələr" mövzusunda keçirilən mətbuat konfransında deyib.**

Nazir bildirib ki, serial Mədəniyyət Nazirliyi ilə Bakı Media Mərkəzinin birgə işi olacaq. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Bakıda Hacı Zeynalabdin Tağıyevin abidəsi qoyulacaq. Abidə demək olar ki, hazırdır, qoyulacağı yer də müəyyənləşib. Bu mənada qarşıdakı il "Tağıyev ili" adlandırıla da bilər. Bəs çəkiləcək serial necə olmalıdır ki, böyük şəxsiyyətin həyatı və gördüyü işlər hərtərəfli əks olunsun?



**Fəlsəfə doktoru, DİA tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova "Şərq"ə açıqlamasında qeyd etdi ki, H.Z.Tağıyevin zəngin, ibrətamiz, canlı epizodlarla dolu həyatı onun bioqrafiyası haqqında çəkiləcək filmin çox baxımlı olmasını təmin edəcək:**

- H.Z.Tağıyevin həm şəxsi həyatı, həm də ictimai fəaliyyəti haqqında kifayət qədər zəngin materiallar var. Tağıyevin həyatı nə qədər maraqlıdırsa, onun ictimai fəaliyyəti də bir o qədər çoxşaxəli və zəngindir. Tağıyevdən danışılanda daha çox iqtisadi fəaliyyəti, messenatlığı önə çəkilir. Amma onun geniş ictimai fəaliyyətinin məlum olmayan tərəfləri də var. Yaxşı olar ki, ictimaiyyətə məlum olmayan fəaliyyəti də işıqlandırılsın. H.Z.Tağıyev Azərbaycan tarixinin çox önəmli, əhəmiyyətli və ictimai-siyasi təlatümlər baxımından zəngin bir dövrünü təmsil edir. Ona görə də hesab edirəm ki, çəkiləcək bu serialda təkcə Tağıyev deyil, ümumilikdə dövrün Bakı mühiti, Azərbaycanın ictimai-siyasi həyatı, dövrün görkəmli şəxslərinin də həyatı da əksini tapmalıdır. Təbii ki, belə bir serialın çəkilməsini təqdir edirəm. Amma serial çəkilməsi prosesində mütləq mütəxəssislərlə məsləhətləşmələr aparılmalıdır. Azərbaycan tarixinin bir neçə mərhələsi üzrə tədqiqatçılardan məsləhət alınmalıdır.

**F.Əhmədova qeyd etdi ki, H.Z.Tağıyev haqqında çoxsaylı rəvayətlər var, çünki o, öz zamanında əfsanələşmiş şəxsiyyət idi:**

- Lakin serial real faktlara söykənməlidir. Tağıyevin qızı Sara xanımın xatirələri, dövrün ziyalılarının, görkəmli şəxsiyyətlərin xatirələri var. Bunlar həm yazılı, həm də şifahi mənbələrdir ki, sənədlərdə əksini tapıb. Bununla yanaşı serial müəlliflərinə böyük köməklik göstərəcək arxiv materialları, bir neçə cild sənədlər toplusu var ki, onlar sayəsində H.Z.Tağıyevin nəhəng fəaliyyəti dəqiqliyi ilə əks etdirilə bilər. Yetər ki, mütəxəssislərin rəyi alınsın.

**Məlahət Rzayeva**



**2022-ci ilin gəlməsinə çox az qaldı. Bu il ölkəmizdə bir sıra mühüm hadisələr baş verib. Pis, yaxşı bu ili də geridə qoymaq üzrəyik.**

Öküz ilində Qarabağa qayıdış proqramları icra olundu, sərhədlərdə erməni təxribatları təkrarlandı, ölkə vətəndaşlarının maaş və təqaüdlərində artım müşahidə olundu. İnflyasiya və digər mühüm hadisələr baş verdi. Media sahəsində də xüsusi yeniliklər edildi. Media haqqında qanun layihəsi Milli Məclisin müzakirəsinə çıxarıldı. Layihəyə münasibət bildirənlər arasında dəstəkləyənlər də oldu, dəstəkləməyənlər də...

# "Vizual xəbərlərə tələbat var"

## Vüsalə Mahirqızı: "Medianın İnkişafı Agentliyinin aktiv fəaliyyətini gördük"

**Azərbaycan mediasının 2021-ci ildə keçdiyi yol və 2022-ci ildən gözləntilər barədə "Şərq"ə danışan "APA Media Group"un baş direktoru Vüsalə Mahirqızı bildirib ki, bu il media üçün çox önəmli il olub**: "2021-ci ildə mediamız üçün çox mühüm hadisələr baş verdi. Bu il ərzində Medianın İnkişafı Agentliyinin (MEDİA) aktiv fəaliyyətini gördük.

Mətbuat üçün yeni qanun layihəsi təklif edildi. Qaydalarla bağlı müsbət və mənfi rəylər var. Lakin layihəni mütərəqqi addım kimi dəyərləndirirəm. Ümid edirəm, bununla bağlı gələcəkdə də nikbin fikirlər söyləyə biləcəyik.

Qeyd etmək istəyirəm ki, bu il media sektorunda ən çox televiziyaların inkişafını gördük. Xüsusilə internet televiziyasının tərəqqisi diqqət mərkəzində oldu. Sosial medianın inkişafı göstərdi ki, artıq yazılı xəbərlərə maraq azalıb, vizual xəbərlərə tələbat var.

Digər tərəfdən artıq medianın sosial şəbəkələrə inteqrasiyasının şahidi oluruq. Xüsusilə, Tiktokda xəbərlər kütləvi izlənilir".

**Xanlar ƏLİBƏY**

# Səhiyyədə uğurumuz da var, problemlərimiz də

## Adil Qeybulla: "Həqiqətən də bu gün ən intensiv vaksinasiya Azərbaycanda gedir"

Pandemiya təcrübəsi bizim dərman bazarının etibarlı olmadığını göstərdi



**2021-ci il başa çatır. Bu il ölkəmizdə siyasi, iqtisadi, sosial və səhiyyə həyatında müsbət və ya mənfi olmaqla müəyyən proseslər baş verdi. Hər bir sahə özünəməxsus olaylarla yadda qaldı. Maraqlıdır, ötən bir il ərzində tibb sahəsində hansı yeniliklər oldu?**

*Tibb elmləri doktoru, professor Adil Qeybulla bu barədə "Şərq"ə danışarkən əvvəlcə tibb sahəsində qazandığımız müəyyən uğur və nöqsanlara diqqət çəkib:*

"Biz Zaqafqaziyada vaksinasiyaya başlayan ilk ölkə olduq. Həqiqətən də bu gün ən intensiv vaksinasiya Azərbaycanda gedir. Bu sahədə müəyyən uğurlar əldə olundu. Təbii ki, çatışmazlıqlar da oldu. Ölkəmizdə icbari tibbi sığortanın tətbiqinə başlanıldı. Proses hələ tam təşəkkül tapmasa da, narazılıqlar, çatışmazlıqlar olsa da, hər halda bu işin başlanılması böyük addım oldu. Azərbaycan vətəndaşlarının sosial müdafiəsində mühüm rol oynayan bir elementin - icbari tibbi sığortanın tətbiqi olduqca önəmlidir. Əlbəttə, bu iş daha da təkmilləşməlidir".

**A.Qeybulla hesab edir ki, pandemiya ilə mübarizə icbari tibbi sığortanın tətbiqi işinə xeyli mane olub və postpandemiya dövründə bu proses daha detallı qurulacaq.** Professor səhiyyə sahəsindəki bu il də həllini tapmayan bir sıra məsələlərə toxunub:

"Dərman bazarında xaos davam edir. Pandemiya təcrübəsi bizim dərman bazarının etibarlı olmadığını göstərdi. Hazırda dərman maddələrinin keyfiyyət parametrləri aşağı olmaqda davam edir. Burda hələ ümumi bir sistem qurulmayıb. Səhiyyə sahəsindəki əsas yüksək göstərici Bakı və Abşeron yarımadasındadır.

Rayonlar hələ də xeyli geridədir. Onları Bakı səviyyəsinə çatdırmaq üçün növbəti il də xeyli iş görülməlidir".

**Günəş Mərd**

# Nümayəndlərin görüşü hazırlanır

## AKP sözçüsü: "Azərbaycan Türkiyə-Ermənistan dialoquna müsbət baxır"



**"Türkiyə-Ermənistan münasibətlərinə Azərbaycan Prezidenti İlham Əliyev müsbət baxdığı üçün, cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğan da bu məsələyə müsbət yanaşdı".**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Partiya) Mərkəzi İcraiyyə Heyətinin (MYK) növbəti iclasından sonra partiyanın sözçüsü Ömer Çelik bildirib.

Partiya rəsmisi Ermənistanın qeyri-konstruktiv mövqeyinin ilk növbədə özünə zərər vurduğunu xatırladıb: "İkinci Qarabağ Müharibəsindən sonra həm cənab İlham Əliyev, həm cənab Rəcəb Tayyib Ərdoğan birlikdə güclü iradə nümayiş etdirdi və Cənubi Qafqazda sülh və sabitliyi təmin edəcək "3+3" formatını irəli sürdülər. Cənab Prezidentimiz də dəfələrlə ifadə etdi ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi ilk növbədə özünə zərər verir. Ona görə də Ermənistanın həm "3+3" formatına qoşulması, həm də Türkiyə-Ermənistan münasibətlərinin normallaşması məsələsi ortaya çıxdı. Rəcəb Tayyip Ərdoğanın da ən həssas yanaşdığı məsələ Azərbaycanın bu prosesə müsbət yanaşması idi. Bu razılıq olduğu üçün artıq Türkiyə Ermənistanla normallaşma addımları atmaqdadır".

Ö.Çelik deyib ki, hazırda bu prosesin baş tutması üçün Ermənistan və Türkiyənin xüsusi nümayəndlərinin görüşü hazırlanır.

# Rusiya həm hərbi, həm də iqtisadi cəhətdən sıxıntılar içindədir

## "Putinin ABŞ-la sərt ritorika ilə danışması heç də onun özünə inamlı olması anlamına gəlmir"



**İsmayıl Qocayev**

**Dekabrın 28-də Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi görüşdə koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.**

Dövlət başçıları qarşılıqlı ticarətin artırılması tədbirləri barədə fikir mübadiləsi aparıblar. Eləcə də sammit iştirakçıları yola salmağa hazırlaşdığımız ildə əməkdaşlıq məsələləri barədə yekunları, həmçinin qarşılıqlı sərfəli partnyorluğun möhkəmləndirilməsi və inkişafını müzakirə ediblər. Görüşün gündəliyinə həmçinin bir sıra MDB ölkələrinin iqtisadi, mədəni və humanitar sahələrdə birgə layihələrinin müzakirəsi də daxil olunub. Sammit iştirakçıları beynəlxalq və regional məsələləri də müzakirə ediblər. Rusiya Prezidenti Vladimir Putin bildirib ki, Moskva MDB ölkələri ilə mövcud münasibətləri gələcəkdə də qoruyub-saxlamaq niyyətindədir: "Bundan öncə də münasibət saxlamışıq, bundan sonra da belə olacaq. Ancaq bu rejimdə toplaşmağımıza səbəb olan əsas məsələlərdən biri daha dərin müzakirə olunmasına ehtiyac duyulan koronavirus pandemiyası ilə birgə mübarizəmizdir".

*İlin son günlərində keçirilən qeyri-rəsmi görüşlə bağlı "Şərq"ə danışan Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, Rusiya-Ukrayna gərginliyi fonunda Vladimir Putinin çıxış yolları axtarması başadüşüləndir. Partiya təmsilçisinin sözlərinə görə, Moskvada keçirilən toplantı ilin yekunlarına həsr olunsa da, Kreml öz təhlükəsizliyi barədə düşünür:* "Putinin ABŞ-la sərt ritorika ilə danışması heç də onun özünə inamlı olması anlamına gəlmir. Rusiya həm hərbi, həm də iqtisadi cəhətdən sıxıntılar içindədir. Dövlət büdcəsinin ABŞ-ın ortabab şəhərlərinin büdcəsindən az olması faktı danılmazdır. Bu ölkənin dominantlığı ilə yaradılan qurumlar faktiki olaraq kağız üzərində "fəaliyyətdədir" və qlobal problemləri çözmək iqtidarında deyil. Bu birliklərdən sadəcə Rusiya mənfəət görür. Son günlər Azərbaycanın Avrasiya İttifaqına üzvlüyü barədə səsləndirilən təkliflərdə qorxulu nəsə görmürəm, yetər ki, ölkəmizə rus hərbi birlikləri buraxılmasın. Rusiyanın Ukraynanı tam ilhaq etmə cəhdləri güc nümayişidir. Ancaq bunun nəticəsi federasiya üçün yaxşı olsa da, Putin üçün pis olacaq. Yaxşı dedikdə Rusiya xalqlarının öz müqəddəratını təyin etmək şansı qazanmasından danışıram".

**Rusiya Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına kömək edib. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin 2021-ci ilin yekunları ilə bağlı yaydığı icmalda bildirilib.**

"Sülhməramlıların fəaliyyət göstərdiyi ərazilərdə erməni separatçılarının təxribatlarının qarşısı alınmalıdır"



# Suallar qalır...

## Rusiya vasitəçiliyinə doğru, düzgün əməl etməlidir

"Rusiya Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına, o cümlədən Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli Komissiyanın yaradılması və habelə, Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin açılması kimi vəzifələrin həllinə yardım edib. Dekabrın 10-da Moskvada "3+3" formatında Məşvərət Regional Platformasının (üç Cənubi Qafqaz dövləti - Azərbaycan, Ermənistan, Gürcüstan, həmçinin, üç qonşu ölkə - Rusiya, Türkiyə, İran) hələlik Gürcüstanın iştirakı olmadan təsis iclası keçirilib", - deyə Rusiya XİN-in məlumatında qeyd olunub.

*Cari il ərzində Rusiyanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dair fəaliyyətini "Şərq"ə şərh edən politoloq İlqar Vəlizadə bildirib ki, Azərbaycan, Rusiya və Ermənistan formatı hazırda konkret fəaliyyətləri olan, işlək bir formatdır və nəticələri də var:* "Ən önəmli nəticə bu ilin yekunlarına görə, Ermənistan tərəfinin Zəngəzur dəhlizinin daxilində olan dəmiryolunun açılması ilə bağlı etiraflarıdır. Bu, ondan xəbər verir ki, doğrudan da bu vasitəçilik müsbət nəticələr verir. Hər halda Prezident İlham Əliyev də dəfələrlə qeyd edib ki, bu üçtərəfli format indiki zamanda ən qəbulolunan və səmərəli format sayıla bilər. Digər tərəfdən, əlbəttə ki, suallar, həll olunmamış məsələlər də qalıb. Bu, xüsusilə də sülhməramlıların fəaliyyət göstərdiyi ərazilərdə erməni separatçılarının aktivliyi və bu aktivliyin regional təhlükəsizliyə təhdid yaratması ilə bağlıdır. Əlbəttə ki, bu istiqamətdə işlər hələ getməlidir. Azərbaycan tərəfinin əsas istəyi tezliklə delimitasiya və demarkasiya ilə bağlı proseslərin başlamasıdır. Burada da Rusiya öz vasitəçiliyini ortaya qoya bilər, yəni vasitəçi rolunu oynaya bilər.

Delimitasiya və demarkasiya ilə bağlı üçtərəfli komisiya təklifi də Rusiyadan gəldi. Bu komissiya tez bir zamanda təşkil olunacaq, fəaliyyət göstərəcək və digər problemli məsələlər də tədricən həllini tapacaq".

**Politoloq həmçinin qeyd edib ki, sülhməramlıların əsas vəzifəsi əmin-amanlığı bərpa etməkdir:**

"Hazırda sülhməramlıların orada qalması əslində prosesləri tənzimləyir. Lakin təəssüflər olsun ki, biz bu sülhməramlıların arxasında separatçılıq meyilləri aşkarlayırıq. Eyni zamanda destruktiv hərəkətlərin də şahidi oluruq. Burada da təhlükələr var. Ona görə də növbəti illərdə bununla bağlı ciddi tədbirlər görülməlidir. Eyni zamanda Rusiya-Türkiyə birgə monitorinq mərkəzi də fəaliyyət göstərir. O monitorinq mərkəzinin də bu istiqamətdə işinin fəallaşdırılmasını zəruri görürük. Belə ki, müxtəlif təxribatçı qüvvələrin fəaliyyəti, onların aşkar olunması, zərərsizləşdirilməsi də zəruridir. Nə qədər ki, terrorçu qruplar bu regionda var və onlar zərərsizləşdirilməyib, bu, bütün region üçün təhlükə mənbəyidir. Onların mövcudluğu digər proseslərə mənfi təsir göstərə bilər. Bütün bunlar nəzərə alındıqda, razılaşmalarla bağlı Rusiya sülhməramlılarının iştirakı ilə bunları etmək lazımdır. Çünki onların birbaşa məqsədi, vəzifəsi əmin-amanlığı bərpa etməkdir. Əks halda sülhməramlıların buradakı fəaliyyəti şübhə altına alına bilər".

**Sənan İsmayıl**

# "Media haqqında" qanuna yeni maddə əlavə ediləcək

## Layihə üçüncü oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub



**Dünən Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin videokonfrans formatında birgə iclası keçirilib. Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc üçüncü oxunuşda müzakirəyə çıxarılan "Media haqqında" qanun layihəsinin əvvəlki oxunuşlarında keçirilən geniş ictimai müzakirələrdən və dinləmələrdən danışıb.**

Zahid Oruc qanun layihəsinə qarşı əsassız tənqidlərə toxunub. Vurğulayıb ki, layihədə internet televiziyalara qarşı heç bir müddəa yer almayıb. Yalnız klassik mənada ölkənin mərkəzi kommunikasiya qurğuları üzərindən yayımlandıqda televiziya kanalı kimi lisensiyalaşdırılmasından söhbət gedir. Komitə sədri ölkənin aparıcı media orqanlarının və qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müxtəlif platformalarda aparılan fikir mübadiləsindən sonra qanun layihəsinə nəzərdə tutulan əlavə və dəyişikliklərin 9 maddəni əhatə etməsi barədə məlumat verib. Z.Oruc deyib ki, siyasi partiyaların və dini qurumların media subyektinin təsisçisi (iştirakçısı) ola bilməyən qurumlar və şəxslər sırasında olması narazılıqla qarşılanıb: "İşçi Qrup məsələ ilə bağlı konsensus əldə edib. Siyasi partiyaların və dini qurumların çap mediası istisna olmaqla, media subyektinin təsisçisi və iştirakçısı ola bilməməsi ilə bağlı müddəa hazırda mövcud olan "Siyasi partiyalar haqqında" və "Teleradio yayımı haqqında" qanunda da əksini tapır. Yəni yeni "Media haqqında" qanun layihəsində siyasi partiyalara və dini qurumlara qarşı hər hansı diskriminasiya tətbiq edilmir. İndi olduğu kimi, bundan sonra da partiyaların "Youtube" kanalları və internet televiziyalarının təsisçisi olmasına və fəaliyyətini bilavasitə həmin kanallar üzərindən qurmasına heç bir yasaq qoyulmur. Partiyaların ölkə miqyasında hansısa media təsis etməsinə yasaq qoyulur. "Siyasi partiyalar haqqında" qanunda gələcəkdə dəyişiklik olacağı təqdirdə, analoji dəyişiklik media qanunvericiliyinə də daşınacaq. Bu layihədə partiyaların hüquqlarını pozan hansısa müddəa irəli sürülməyib".

**Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli də bildirib ki, müzakirələrdə media nümayəndələrinin qanun layihəsinin indiki formatından razılıqları açıq ifadə edilib.** Birinci vitse-spiker qeyd edib ki, yeni qanun layihəsi Venesiya Komissiyası tərəfindən təqdir olunmuş normaların məcmusudur.

**Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Media haqqında" qanun layihəsinə təklif olunan dəyişiklikləri bir-bir iclas iştirakçılarının diqqətinə çatdırıb.** Şöbə müdiri bildirib ki, layihədə internet televiziyalarının məcburi lisenziyalaşdırılması müddəası nəzərdə tutulmasa da, ictimai müzakirələrdə ən çox narahatlıq bu məsələ ilə bağlı ifadə edilib: "Bu yanaşmanın aydın başa düşülmədiyi iddia edildiyindən, layihəyə yeni 30.8-ci maddə əlavə olunub və daha dəqiq göstərilib ki, "Birbaşa internet üzərindən audiovizual proqramlar yayımlayan şəxslər yalnız öz müraciətləri əsasında platforma yayımçısı lisenziyası ala bilərlər".

Sonra deputatlar layihənin müzakirəsinə keçiblər. Müzakirələrdə İnsan hüquqları komitəsi sədrinin müavini Tahir Kərimli, komitələrin üzvləri Fazil Mustafa, Hikmət Məmmədov, Razi Nurullayev, Azay Quliyev çıxış edib, qeydlərini bildiriblər. Millət vəkilləri sosial şəbəkələrdə və digər platformalarda qanun layihəsinə qarşı aparılan kampaniyanın əsassız olmasını vurğulayıblar. Tənqidlərin ümumi sözlərlə ifadə olunması, konkretlikdən və qanunun predmetindən uzaq olması qeyd edilib. Deputatlar "Media haqqında" qanun layihəsinə cəmiyyətin böyük maraq göstərməsini və sənədin kifayət qədər geniş ictimai müzakirələrdən keçməsini, maraqlı diskussiyaların aparılmasını, təkliflərin diqqətlə dinlənilməsini, ciddi araşdırılmasını müsbət qiymətləndiriblər. Belə bir inam ifadə olunub ki, qanun layihəsinin indiki formatı media sektorundakı düzənsizliyi nizama salacaq, bu sahəni müasir dövrün tələblərinə uyğun tənzimləyəcək. İclasın sonunda deputatlar "Media haqqında" qanun layihəsini üçüncü oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

**İsmayıl**



**Tanınmış erməni siyasi analitik Razmik Akopcanyan Gürcüstana qarşı iddia ilə çıxış edib. Onun sözlərinə əsasən, gürcülər, guya, ermənilərə qarşı nankorluq edir, keçmişlərini unudurlar. Akopcanyan iddia edib ki, Gürcüstanın yaranmasında, varlığında ən böyük rolu məhz ermənilər oynayıb: "Əslində, onların paytaxtı Tiflis də qədim erməni şəhəridir.**

Üstəlik, hazırda çoxlu sayda erməni kilsəsi "gürcü kilsələri"

# Ermənilər Tiflisə, Cavaxetiyaya iddia edirlər

kimi təqdim olunur. Nə edək, bizim də belə qonşularımız var. Gürcülər daim bizə arxadan zərbələr endiriblər". Ermənilərin Azərbaycan və Türkiyə ilə yanaşı zaman-zaman qonşu Gürcüstana, xüsusən, ermənilərin kompakt yaşadığı Cavaxetiya bölgəsinə də ərazi iddiaları gündəmə gəlib. Amma bu dərəcədə həyasız iddia yəqin ki, nadir hallarda ortaya atılır. Bir sıra şərhçilərə görə, region ölkələri arasında birgə əməkdaşlıq platformalarının müzakirə olunduğu indiki dövrdə bu cür əsassız iddialar təxribat niyyətindən xəbər verir. İstənilən halda Gürcüstanla qarşıdurma Ermənistana heç nə qazandırmır. Əksinə, qonşularla normal əməkdaşlıq prosesinə zərbə vurur.

***"Akopcanyan kimilərin sərsəmləməsi onu göstərir ki, mənfur ermənilər indiki Gürcüstan ərazisində yaşamış xristian qıpçaqların maddi-mənəvi mirasına "yiyə" çıxmaq arzusundadırlar"***

**Sərsəm iddialarla bağlı "Şərq"ə danışan AMEA-nın əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli deyib ki, Akopcanyanın yanaşması heç də təəccüblü və təsadüfi deyil. Alimin sözlərinə görə, illər boyu "Qarabağ, Naxçıvan bizimdir" deyə bağıran ermənilər eyni təfəkkürlə Tiflisə, Cavaxetiyaya da iddia ediblər:** "Ermənilər qədim dövrdən regionumuzda yaşayan bütün xalqların, əsasən də türklərin mirasına sahib çıxmaq istəyir. Məlumdur ki, Azərbaycan türklərinin bir qismi vaxtı ilə xristianlığı qəbul edib, sonradan islam dininə keçiblər. Torpaqlarımızda mövcud olmuş Albaniya xristian dövləti olub. Atropatenada isə tanrıçılıq və məcburi qaydada zərdüştilik yayılıb. Ermənilər xristian türklərə məxsus adət-ənənələri, əsərləri mənimsəməyə çalışıblar. Albaniyaya qonşu olmuş Ərməniyyə dövləti isə Arşakilər sülaləsi tərəfindən idarə olunub. Ərməniyyə dövlətinin indiki ermənilərlə, daha doğrusu, haylarla heç bir əlaqəsi yoxdur. İndiki Gürcüstan ərazilərində İberiya dövləti qurulub. Həmin dövlətin qurulmasında xristian türklər, xüsusən qıpçaqlar mühüm rol oynayıb. Akopcanyan kimilərin sərsəmləməsi onu göstərir ki, mənfur ermənilər indiki Gürcüstan ərazisində yaşamış xristian qıpçaqların maddi-mənəvi mirasına "yiyə" çıxmaq arzusundadırlar. Ermənilər qədim qıpçaqların dövlətinə, mədəniyyətinə, yazısına göz dikib. Tiflis şəhərinin salınmasında və inkişafında gürcü xalqı ilə yanaşı, hətta onlardan daha çox xristian türklər rol oynayıb".

*Alim vurğulayıb ki, ermənilərin həyasızcasına hər şeyi öz adlarına çıxmasının önünü almaq üçün bütün həqiqətləri aşkara çıxartmalıyıq:* "Hayların bölgəyə nə zaman gəldiyini və onlardan öncə burada hansı xalqların yaşadığını dəlil-sübutlarla, faktlarla ortaya qoymaq lazımdır. Ermənilərin hər iddiasına yerindəcə tutarlı cavab verilməlidir ki, bəlkə zamanla sərsəm yanaşmalarından vaz keçsinlər. Avropa tarixçiləri də erməni uydurmalarına ciddi reaksiya verməli, əllərindəki arxiv sənədlərini gizlətməməlidirlər. Əks halda hayların həyasızlığı davam edəcək".

**İsmayıl Qocayev**





# İran kommunikasiyaların açılmasında maraqlıdır

## Putinlə Rəisinin görüşündə daha çox regionda baş verən yeni reallıqlar müzakirə olunacaq

**İran Prezidenti İbrahim Rəisi 2022-ci ilin ilk günlərində Rusiyaya rəsmi səfər edəcək. İran hökumətinin sözçüsü Əli Bahadori vurğulayıb ki, hazırda Prezidentin siyasi məsələlər üzrə müavini səfər planını hazırlayır.**

Rəsmi mənbə əlavə edib ki, səfər zamanı İ.Rəisi Tehran və Moskva arasında ikitərəfli və ticarət-iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etməyi planlaşdırır.

**Görüşü şərh edən politoloq Natiq Miri "Şərq"ə bildirib ki, danışıqlar zamanı Azərbaycan-Ermənistan münasibəti və yaranan yeni reallıqlar əhatəsində müəyyən müzakirələr aparılacaq:** "Çünki yeni reallıqlar regionda bütün kommunikasiyaların açılmasını zəruri edib. Bu yöndə yeni razılaşmalar, konkret fəaliyyətlər var. Həmçinin Culfadan İrana keçid, yəni yeni bir dəmir yolunun bərpa olunması məsələləsi var. Rusiyanın Şimal-Cənub dəhlizi çərçivəsində Naxçıvandan keçməklə Ermənistana, eyni zamanda Naxçıvan dəmiryolu vasitəsilə birbaşa İran, Hindistan və Pakistana qədər öz ticarət-iqtisadi əməkdaşlıq prosesini intensivləşdirəcəklər".

**Politoloq vurğulayıb ki, geosiyasi əməkdaşlığın mövcudluğu, əslində regionda sülhün təminatı anlamına gəlir:**

"Bilirsiniz ki, "3+3" formatı çərçivəsində artıq Rusiyada ilk görüş baş tutub. Yaxın zamanlarda daha bir görüşün Türkiyədə də keçirilməsi nəzərdə tutulur. Düşünürəm ki, bu məsələlər də müzakirə predmeti olacaq. Müzakirələr regionda əməkdaşlıq platforması ilə bilavasitə əlaqəlidir. Bu da indiki vəziyyətdə həm Rusiyanın, həm İranın siyasi və iqtisadi aspektlərdən maraqlarına xidmət edir".

**Politoloq Azərbaycan-İran münasibətlərinə də toxunub:** "Doğrudur, bir neçə ay öncə İranla Azərbaycan arasında, xüsusilə, Zəngəzur dəhlizi və İran-Ermənistan sərhədləriylə bağlı bəzi anlaşmazlıqlar var idi. Ancaq dövlət rəsmiləri görüşəndən sonra, xüsusilə, Aşqabadda Azərbaycan və İran prezidentlərinin görüşü zəmnində bir çox qaranlıq məqamlara aydınlıq gətirildi. İndi fikir verirsinizsə, İranla Azərbaycan arasında əməkdaşlıq çox sürətlə inkişaf etməkdədir. Hətta iki yol xəritəsi hazırlanıb. Bu xəritələr artıq icraata verilib. Düşünürəm ki, perspektivdə bu cür layihələrin, bu cür yol xəritələrin sayı artacaq".

N.Miri 44 günlük Vətən müharibəsi ilə ölkəmizin qələbə qazanmasının regionda fərqli bir sfera yaratdığını qeyd edib: "Həm qələbəmiz, həm də böyük dövlətlərin rəhbərlərinin görüşü regiona geosiyasi və geoiqtisadi rakursdan impuls verəcək. Bu konteksdə də Azərbaycan və Türkiyənin "3+3" təşəbbüsü yeni bir istiqamətdir. Bunu heç kim dana bilməz".

**Cəmilə ƏZİM**

# Toqquşma olsa Ukrayna dağıdıcı məğlubiyyətə uğrayacaq

## ABŞ və Qərbin Rusiya ilə hərbi münaqişəyə girmək kimi bir planı mövcud deyil

**ABŞ Ukraynanın Rusiya və Belarusla sərhədlərinin möhkəmləndirilməsinə 20 milyon dollar ayırıb. Ukraynanın Dövlət Sərhəd Xidməti layihənin il ərzində həyata keçiriləcəyini açıqlayıb. Qeyd edək ki, Amerika Prezidenti Co Bayden dekabrın 27-də 2022-ci il üçün müdafiə büdcəsini imzalayıb. Sənədə görə, ümumən Ukrayna Silahlı Qüvvələrinə dəstək məqsədilə 300 milyon dollar ayrılması nəzərdə tutulur. Ötən gün Rusiyanın Xarici işlər naziri Sergey Lavrov növbəti dəfə Qərbə xəbərdarlıq edib.**





Nazir bildirib ki, NATO-nun raketlərini Rusiya sərhədlərinə yerləşdirməsi böyük təhdiddir və mövcud gərginliyi artıra bilər: "Kiyevi NATO-ya daxil etmək prosesi Rusiyanın təhlükəsizliyinə qarşı qəbuledilməz təhdidlər yaradır. Bu vəziyyət Avropada böyük bir qarşıdurmaya qədər gedə bilər. Bu, bütün tərəflər üçün ciddi hərbi risklər yaradır". Qeyd edək ki, bir müddət əvvəl Rusiya Prezidenti Vladimir Putin Ukraynanın hərbi alyansa üzv olmasına qarşı olduğunu və ölkəsi üçün təhlükə yaratdığını demişdi: "Hərbi blokun raket sistemləri Ukraynada peyda olarsa, onda onların Moskvaya uçuş müddəti 7-10 dəqiqəyə, hipersəs silahlarının yerləşdirilməsi ilə isə 5 dəqiqəyə qədər azalacaq. Bu, bizim üçün ən ciddi çağırışdır - təhlükəsizliyimizə çağırışdır".

**Tərəflərin səngimək bilməyən gərginliyini "Şərq"ə təhlil edən politoloq Elçin Xalidbəyli deyib ki, ABŞ Ukraynaya siyasi dəstək verir. Eyni zamanda ölkənin hərbi potensialının gücləndirilməsinə də maliyyə dəstəyi göstərir. Lakin ekspertə görə, Amerika və Qərbin dəstəyi Ukraynanı Rusiyanın hərbi müdaxiləsindən qorumaq üçün yetərli deyil:** "Rusiya ilə hərbi toqquşma Ukrayna üçün dağıdıcı məğlubiyyətlə yekunlaşa bilər. Təbii, bu reallığı ABŞ və Qərblə yanaşı, rəsmi Kiyev də bilir. Ona görə də Kiyev hərdən Rusiya ilə dialoqa hazır olması barədə mesajlar verir. Ancaq Ukrayna hökumətinin Donbass və Krım məsələlərini danışıqların predmetinə çevirmək cəhdləri Kremli rəsmi Kiyevlə birbaşa danışıqlardan yayındırır. Çünki Rusiya ilhaq etdiyi Krımı öz ərazisi hesab edir, Donbass məsələsində isə rəsmən tərəfə çevrilmək istəmir. Amerika və Qərb Ukraynanın ağır məğlubiyyətə uğrayacağını tam dəqiqliyi ilə bilsə də, rəsmi Kiyevi Rusiya ilə birbaşa hərbi toqquşmaya sürükləməyə can atır. Əgər Rusiya qoşunları Ukrayna sərhədlərini keçərsə, bir çoxlarının iddialarının əksinə olaraq, NATO hərbi münaqişəyə bulaşmağa həvəs göstərməyəcək. Əksinə, baş verənləri kənardan müşahidə edərək, Rusiyaya qarşı daha sərt beynəlxalq sanksiyaların tətbiq olunmasına nail olmaqla kifayətlənəcək. ABŞ və Qərbin Rusiya ilə hərbi münaqişəyə girmək kimi bir planı mövcud deyil. Hazırda baş verənlərsə, daha çox Rusiyanı Ukraynada "hərbi-siyasi tələ"yə salmaq məqsədi daşıyır".

**Analitik vurğulayıb ki, Rusiyanı test edirlər. Əgər Rusiya Ukraynaya hərbi müdaxilə etməyə cəsarət göstərməzsə, Kreml ABŞ və Qərbin sonrakı təzyiqləri qarşısında zəif vəziyyətdə qalacaq:** "Yox, əgər Ukraynaya hərbi müdaxilə edərsə, Rusiyaya qarşı ən ağır beynəlxalq sanksiyalar tətbiq olunacaq. Kremldə bütün bu oyunların əsas hədəflərini anlayırlar. Böyük ehtimalla ABŞ və Qərbin Ukraynanı NATO-ya üzv qəbul etmək kimi niyyəti də yoxdur. Çünki parçalanmış və ərazisində hərbi münaqişə olan Ukrayna indiki vəziyyəti ilə hərbi alyansa lazım deyil. Ukrayna kimi daxili hərbi münaqişələrə məruz qalmış ölkələrin NATO-ya üzvlüyü mümkün hesab olunmur. Ukraynanın gələcəkdə hərbi alyansa üzv olmağa potensial namizəd imicini yaradıb, bu ölkənin ərazisində yeni hərbi bazaların yaradılmasına cəhd göstərilir. Rusiya ilə həmsərhəd ölkələrdə belə hərbi bazaların yaradılması Qərbə Kreml qarşısında siyasi-psixoloji üstünlük verə bilər. Bu savaşın hərbi cəhətdən Ukrayna sərhədlərindən kənara sıçraması real görünmür. Ancaq beynəlxalq siyasət məkanında Rusiyaya qarşı qlobal təzyıq kampaniyasının baş qaldıracağı şübhəsizdir. Kremlin yaxın aylarda qəliz hərbi-siyasi labirintdən necə çıxacağı Rusiyanın gələcək taleyi baxımından həlledici xarakter daşıyır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycançılıq ideyasının təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - azərbaycançılıq ideologiyası bizi birləşdirən əsas dəyərdir**



# Vətən müharibəsi xalqımızın birliyini daha da möhkəmləndirdi

## Dünya azərbaycanlılarının həmrəyliyi azərbaycançılıq ideologiyasına söykənir

**Həmrəylik və azərbaycançılıq. Azərbaycan xalqının birliyini, həmrəyliyini, milli iradəsini və əzmini ifadə edən iki məfhum bir-birini tamamlayır. Harda həmrəylik varsa, orada Azərbaycan sevgisi, Azərbaycanın bütövlüyü, inkişafı uğrunda milli birlik və milli mücadilə var. Hətta sovetlər dönəmində də xalqımızın birliyini heç bir yad ideologiya poza bilmədi. Azərbaycan xalqı tarixin kəşməkeşlərində həmrəyliyini, vəhdətini qoruyub saxladı.**

Sovetlər İttifaqının labüd süqutu ilə bir zamanlar SSRİ adlı ölkənin tərkibinə daxil edilmiş respublikalar müstəqilliklərini elan etməyə başladı. O cümlədən də Azərbaycan. Azərbaycanın müstəqilliyinin bərpası qanlı-qadalı oldu, xalqımız 20 Yanvar faciəsi ilə üzləşdi. Lakin bütün çətinliklərə yenə də xalqın birliyi sayəsində qalib gəldi və ağrılı proseslərdən keçə bildi. Müstəqilliyimizin bərpasının əsas ideyası, əlbəttə, həmrəylik və azərbaycançılıq idi. Bu ideologiyanın dövlət səviyyəsində, dövlət siyasəti olaraq yürüdülməsi isə təbii ki, ümummilli lider Heydər Əliyevin adıyla bağlıdır. Ötən əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəllərini xatırlayanlar həmin dövrdə xalqımızın nəhəng birlik, vəhdət nümayiş etdirdiyini də yaxşı xatırlayır. Dünya azərbaycanlılarının həmrəyliyi məhz həmin illərdə - konkret 1989-cu ildə yüksək zirvəyə çatdı. 1989-cu ilin noyabrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi xalqın iradəsini bir daha ifadə edərək Cənub və Şimali Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul etdi. Sovet İttifaqı Kommunist Partiyasının, Azərbaycan Kommunist Partiyasının mərkəzi komitələri, partiyanın yerli orqanları, SSRİ sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün siyasi və hərbi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq Azərbaycan Xalq Cəbhəsinin Naxçıvan Vilayət şöbəsi ardıcıl olaraq ”Sərhəd hərəkatı” adlı bir sıra siyasi aksiyalar həyata keçirdi. Genişlənən demokratik hərəkatın nəticəsində SSRİ-nin dövlət sərhədi boyunca çəkilən sərhəd çəpərləri elliklə söküldü. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Bunun nəticəsi olaraq 1989-cu il dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü Naxçıvan Muxtar Respublikasında geniş qeyd edildi. Və ümumxalq bayramına çevrildi. 1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan dərnəkləri qurultayı Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real davamı kimi milli birlik və həmrəylik yolunda atılan daha bir mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürülürdü. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bu barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 6 bənddən ibarət qərar qəbul etdi. Ümummilli lider Azərbaycanın müstəqillik yolunun çətin olacağını, bu yolda müxtəlif maneələr yaranacağını, şübhəsiz ki, bilirdi və ölkəni müstəqil dövlət olaraq inkişafa doğru aparmaq yolunda xalqın həmrəyliyini və azərbaycançılıq ideologiyasını əsas aparıcı qüvvə hesab edirdi. Həmçinin ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq üçün də mühüm əhəmiyyətə malik idi. Gözlənildiyi kimi də oldu. 30 ilə yaxındır ki, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü dünya ölkələrində, azərbaycanlıların yaşadığı hər yerdə əziz bayram kimi qeyd olunur. Azərbaycançılıq ideologiyasına söykənən bu bayramı hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli yurddaşlarımız da təntənə ilə qeyd edir. 2002-ci ilin 5 iyulunda isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ”Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında” Fərman imzaladı. Məqsəd yenə də dünya azərbaycanlılarını azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək, dünyaya həmrəy olduğumuzu nümayiş etdirmək idi.

**Azərbaycan Prezidenti yanında Dövlətçilik və İdarəetmə Akademiyasının professoru Həvva Məmmədova ”Şərq”ə açıqlamasında qeyd etdi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq ideologiyası bu gün də cənab Prezident İlham Əliyevin timsalında dövlət siyasətinin əsas prioritetidir:**

- 30 ilə yaxındır ki, dünya azərbaycanlıları 31 dekabrı həmrəylik bayramı olaraq qeyd edir. Bu bayramın əsasını azərbaycançılıq ideologiyası təşkil edir. Harada, hansı ölkədə yaşamasından asılı olmayaraq bütün azərbaycanlılar bu bayramı ən əziz gün kimi qeyd edirlər. Çünki bu, millətin, xalqın həmrəylik bayramıdır. Və azərbaycanlıların Vətən ideologiyası, milli birlik ideologiyası uğrunda bir ürək kimi döyünməsinin nümunəsidir. Milli birliyə söykənən bu ideologiyanın da əsasını ulu öndər Heydər Əliyev qoyub. Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyev də bu siyasəti prezident seçilən gündən davam etdirir. Xalqımız milli birlik ideologiyasına, azərbaycançılıq ideologiyasına sadiqliyini Qarabağ müharibəsində göstərdi. Həm birinci Qarabağ müharibəsində, həm də 44 günlük müharibədə. Mən Xankəndinin sakini kimi xalqımızın birliyinə müharibə dövründə şahid olmuşam, bu gün də şahidəm. Vətən müharibəsində qələbənin əldə edilməsində Ali Baş Komandanın qətiyyəti, əsgərlərimizin igidliyi, şücaəti, ordumuzun gücü necə əhəmiyyətli idisə, xalqımızın sahib olduğu yüksək mənəvi keyfiyyətlər, milli birlik də o dərəcədə əhəmiyyətli idi. Və xalqımız məhz azərbaycançılıq ideyasına söykənərək vəhdət nümayiş etdirdi, qələbəyə nail oldu. Təkcə Azərbaycanda yox, xaricdə yaşayan soydaşlarımızın ürəyi Vətənlə döyünürdü və bu qələbədə hər bir azərbaycanlının öz payı oldu. Xaricdə yaşayan azərbaycanlılar heç vaxt özlərini Vətəndən ayrı düşünməyiblər. Uzaqda olsalar da qəlbləri Vətənlə döyünüb. Hər bir azərbaycanlı Azərbaycan ideyası ətrafında birləşib. Buna görə də xalqımızı sarsıtmaq mümkün deyil.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**





# Məmurlar qanundan sui-istifadə edirlər

## “Milli Məclis yanında qanunvericilik institutunun yaradılması vacibdir”

**Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Jalə Əhmədova Oxu.Az-a müsahibə verib. Xanım parlamentari bildirib ki, ölkə qanunlarındakı boşluqlardan məmurlar istənilən şəkildə istifadə edirlər.**

Qanunvericilikdə sözügedən boşluqlar hansı səbəblərdən yaranması maraqlı haldır? Bəs məmurların, eləcə də digər şəxslərin bundan sui-istifadə etməsinin qarşısını necə almaq olar?

***Əlimməmməd Nuriyev: "Hər bir qanun qəbul edilərkən, burda bütün tərəflərin maraqları təmin edilməlidir"***

**”Konstitusiya” Araşdırmalar Fondunun sədri, hüquqşünas Əlimməmməd Nuriyev ”Şərq”ə bildirib ki, hansısa qanunda problem varsa, Milli Məclis onun həlli istiqamətində fəaliyyətini daha da dərinləşdirməlidir:**

”Azərbaycan qanunvericiliyi yetərli qədər hüquq və azadlıqların təmin edilməsinə imkan verir. Bilirik ki, qanunvericilik zamanla stabil qalmayıb inkişaf edir. Bununla yanaşı qanunvericiliyin tətbiqi sahəsində fəaliyyət göstərən şəxslər, deputatlar da burda olan boşluqların, problemlərin vətəndaşların xeyrinə həll olunmasına çalışmalıdır. Daha bundan sui-istifadə etməyə cəhd göstərməməlidirlər”.

*Hüquqşünas müxtəlif vaxtlarda deputatlar, eləcə də ayrı-ayrı şəxslər tərəfindən təklif olunan Milli Məclisin yanında qanunvericilik institutunun yaradılmasının vacibliyini vurğulayıb:*

”Qəbul edilən qanunlar bu qurum tərəfindən ciddi şəkildə təftiş olunmalı, ziddiyyətli məqamlar, boşluqlar varsa, sui-istifadə hallarına yol verilibsə, aradan qaldırılmalıdır. ”Normativ hüquqi aktlar haqqında” qanuna görə istənilən qanun qəbul edilməzdən əvvəl onun hüquqi ekspertizası həyata keçirilməlidir. Təəssüf ki, biz praktikada bu ekspertizanın həyata keçirildiyini görmürük. Əgər olursa da, həmin nəticələr müvafiq qurumların saytlarına yerləşdirilmir”.

**Ə.Nuriyevin qənaətincə, qanunvericiliyin hazırlanması prosesinə bütövlükdə vətəndaş cəmiyyəti, özəl sektor geniş miqyasda cəlb olunmalı və qanun layihələri ilə bağlı digər normativ hüquqi xarakterli aktlar geniş ictimai dinləmədən keçirilməlidir :**

”Bu praktikadan da bizim dövlət orqanları istifadə etmir. Etsələr də, bunu fraqmental olaraq həyata keçirirlər. Beləcə həmin qanunlarda boşluqlar yaranır. Digər tərəfdən qanunların icrasında məsul olan şəxslər heç də bütün hallarda onların icrasını istəmirlər. Çünki bu mexanizmlər qanundan istifadə edən hər bir şəxsə imkan verir ki, o, öz hüquq və azadlıqlarının təmin edilməsini tələb edə bilsin”.

Hüquqşünas problemin digər səbəbini Nazirlər Kabineti tərəfindən qəbul edilən normativ aktların ümdə xarakter daşıması və onların hər hansı bir ictimai müzakirədən keçməməsində görüb: ”Onlar vətəndaş cəmiyyətini bu prosesə cəlb etmirlər. Qəbul edilən hər bir qanun qəbul edilərkən, burda bütün tərəflərin maraqları təmin edilməlidir. Belə olduqda yaranmış boşluqları da aradan qaldırmaq mümkün olar və heç kəs bundan sui-istifadə edə bilməz”.

**Günəş Mərd**

# "Jurnalistə veriləcək ən böyük mükafat yüksək əməkhaqqı olmalıdır"

## Seymur Verdizadə: “Bunun üçün reklam bazarını canlandırmaq, redaksiyaların gəlirini artırmaq lazımdır”

**Media subyektləri və jurnalistlərə veriləcək imtiyazlar paketi ilə bağlı müzakirələr gedir. Bu barədə Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov deyib. O bildirib ki, sual doğuran məsələ güzəştlərin nə qədər adama şamil ediləcəyi ilə bağlıdır. Əhməd İsmayılovun sözlərinə görə, qanun qəbul edildikdən sonra güzəştlərlə bağlı qanunvericilik layihəsi hazırlanacaq və daha sonra müzakirəyə təqdim olunacaq.**



***"Jurnalistə hansısa güzəştin edilməsindən qorxmaq lazım deyil. Əsas odur ki, bu güzəştlər şəffaf olsun"***

Xatırladaq ki, qanun layihəsində Reyestrə daxil edildikdən sonra müvafiq vəsiqəni alan jurnalistlər üçün bir neçə imtiyaz da nəzərdə tutulur. Bu vəsiqələri alan jurnalistlər dövlət orqanları, müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları tərəfindən akkreditasiya olunmaq imtiyazı qazanacaq. Həmçinin, jurnalistlər öz fəaliyyətini icra edərkən dövlət və bələdiyyə mülkiyyətində olan muzeylərə, qalereyalara, habelə mədəni-ictimai tədbirlərin həyata keçirildiyi obyektlərə ödənişsiz daxil olacaq. Media subyektlərinin işçilərinin və jurnalistlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təşkil edilən təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirakı da nəzərdə tutulur. İndiyədək bir sıra sahədə çalışan şəxslər üçün güzəştli kreditlər nəzərdə tutulsa da, jurnalistlər daim bu məsələdən kənarda qalıb. Yeni qanunla jurnalistlərin maliyyə xarakterli güzəşt və imtiyazlardan istifadəsi mümkün hala gələcək.

**Media nümayəndələri üçün nəzərdə tutulan güzəştlər haqqında fikirlərini ”Şərq”lə bölüşən Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, ”yenisabah.az” saytının baş redaktoru Seymur Verdizadə deyib ki, jurnalistlərə sosial güzəştlərin edilməsi ilə bağlı təkliflər həmişə mübahisələrə səbəb olub.** JAM sədrinin sözlərinə görə, bunu ələbaxımlılıq kimi qiymətləndirənlər də var: ”Mən bu fikirdəyəm ki, jurnalistlərə veriləcək ən böyük mükafat yüksək əmək haqqı olmalıdır. Jurnalist yaxşı maaş almalı, əli onun-bunun cibində olmamalıdır. Bunun üçün reklam bazarını canlandırmaq, redaksiyaların gəlirini artırmaq lazımdır. Təəssüf ki, qısa zamanda buna nail olmaq mümkün deyil. Reallıq isə odur ki, jurnalistlərin sosial dəstəyə ehtiyacı var. Bir anlığa təsəvvür edək ki, dövlət Bayılda jurnalistlərin yaşadığı iki binanı tikməyib. Bu o deməkdir ki, yaşlı-başlı, təcrübəli media nümayəndələrinin əksəriyyəti hələ də evsiz qalacaqdı. Əgər jurnalist öz maaşı ilə ev ala bilmirsə, dövlətin uzatdığı əli geri itələməməlidir”.

*S.Verdizadə təəssüflə qeyd edib ki, üç evi, iki bağı olan adamlar jurnalist etikasından daha çox danışırlar:* ”Adamdan soruşarlar ki, sən o evləri, bağları hansı pulla almısan? Hansısa oliqarxdan almısan, üstəlik gizlin almısan. Jurnalist isə dövlətdən alıb, həm də aşkar alıb. Dünyanın əksər ölkələrində jurnalistlər üçün müəyyən güzəştlər nəzərdə tutulub. Türkiyədə, Avropa ölkələrində də bu cür tendensiya var. Jurnalistə hansısa güzəştin edilməsindən qorxmaq lazım deyil. Əsas odur ki, bu güzəştlər şəffaf olsun”.

**İsmayıl Qocayev**

# İnsanların seçim imkanları yoxdur

## “Adətən tibbi sığorta olunan müxtəlif şirkətlər və dövlət qurumları insanları ayrıca sığorta şirkətlərinə və sahibi olduğu klinikalara yönləndirirlər”




**Azərbaycanda ”Tibbi sığorta haqqında” qanuna uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi sığorta xidmətlərinin xidmətlərin göstərilməsi daha 1 il müddətinə əlavə dəyər vergisindən (ƏDV) azad edilir.**

Bu, ”Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsində öz əksini tapıb.

Sənədə əsasən, möhlət 31 dekabr 2022-ci ilə qədər artırılır.

Qərarı ”Şərq”ə şərh edən iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, bu qərarın verilməsinin səbəbi fondun xərclərinin optimallaşdırılmasına vaxt tanınmasıdır: ”Bu addım İcbari Sığorta Fondunun daha keyfiyyətli xidmət göstərə bilməsi üçün nəzərdə tutulub”.

**İqtisadçı hesab edir ki, Azərbaycanda xidmət göstərən tibbi müəssisələr və sığorta şirkətləri demək olar ki, məmur oliqarxiyasına məxsusdur:** ”Ancaq güman etmirəm ki, bununla iş bitmiş olsun. İnsanların seçim imkanları yoxdur. Adətən tibbi sığorta olunan müxtəlif şirkətlər və dövlət qurumları insanları ayrıca sığorta şirkətlərinə və sahibi olduğu klinikalara yönləndirirlər. Hətta vətəndaşlara uzaq olsa da, o müqaviləyə əsasən şəhərin digər uzaq yerinə getməyə məcbur olurlar. Belə məhdudiyyətlərin aradan qalxacağı ilə bağlı bir çox siqnallar verilmişdi. Çünki məlum proses birbaşa inhisarçılıq yaradan amildir. Bu zaman da insanlar sığortaya etibar etmir”.

N.Bəydəmirli ölkədə icbari sığortaya inamsızlığın səbəblərindən də danışıb: ”Əsas səbəblərdən biri göstərilən xidmətin hələ də normal olmamasıdır. Digər ölkələrdə bu vəziyyət fərqlidir. Məsələn, Gürcüstanda ictimai tibbi sığorta çox güclü şəkildə formalaşıb. Onlarda bu sistem vətəndaşın istək və tələblərini nəzərə alır və ödəyir”.

**İqtisadçı bu sahədə rəqabətin olmadığından söz açıb:**

”Azərbaycanda bazar iqtisadiyyatı olmasına baxmayaraq, inhisarçılıq yüksək səviyyədədir. Rəqabətçilik mühiti azdır. Çox təəssüf edirəm ki, dövlət öz mülkiyyətində olan xəstəxanalara daha çox maddi və digər dəstək göstərir. Özəl sektora isə çox qısqanclıqla yanaşır. Özəl sektorun marağı dövlət sektorundan aşağı tutulursa, hüquq və vəzifələr belə bərabər olmursa, bizim ölkədəki vəziyyət yaranır. Həkimlərin icbari sığortadan gələn qonorarı aşağı olduğuna və fondun xərclərinin şəffaf olmadığına görə əhali arasında etibarsızlıq var. Bunlar aradan qaldırılsa, tədricən bu proses düzələ bilər”.

**Çimnaz ŞAHLAR**

# "Ürəyimi fəth etmək istəyən o qədər insan var ki..."

## Rövşanə Ağasəfqızı: ”İnsan məşhurlaşdıqca, intelekt olaraq üst olduqca tənhalaşır”



**Aparıcı Rövşanə Ağasəfqızı şəxsi həyatı ilə bağlı sualları cavablandırıb.**

Rövşanə b haqda MTV-yə açıqlamasında danışıb. O, ”Ürəyinizi fəth edən bir insan yoxdur” sualına belə cavab verib: ”Mənim ürəyimi almaq çətin məsələdir. Almaq istəyən var, nə qədər. Hər viddə, hər formada, növbə növ. İnsan məşhurlaşdıqca, intelekt olaraq üst olduqca tənhalaşır. Daxilən tənhalaşırsan... Son vaxtlar bu nöqtədə çətinlik çəkirəm. Ürəyimi fəth edən bir insan hələ ki, yoxdur”.

# Manananın həyat yoldaşı efirə gəlib, ona etiraflar etdi



**Əməkdar artist Manana Caparidze ad gününü ”Həmin Zaur” proqramında qeyd edib.**

Həyat yoldaşı Georgi studiyaya gələrək onu təbrik edib. ”Səni sevirəm, mənim sevgilim. Səni çox sevirəm” deyə, o, Mananaya söyləyib. İfaçı bildirib ki, Georgi Azərbaycan dilində danışmağı öyrənir: ”14 ildir evliyik. Yanımızda adam olanda, heç kim başa düşməsin deyə Azərbaycan dilində çalışır. İlk günkündən daha çox bir-birimizi sevirik”.

# Sərbəst bazar yoxdur

## Zeynal Məmmədli: “Əcnəbi serialların qarşısını almağa çalışırlarsa, yerli seriallar hazırlanmalıdır”



**Milli Televiziya və Radio Şurasının (MTRŞ) 2021-ci il üzrə hesabatında Azərbaycan telekanallarında əcnəbi seriallarla bağlı nəzarətin gücləndirilməsi öz əksini tapıb. Qeyd edək ki, MTRŞ Aparatının Ekspertiza, proqramlaşdırma və analitik şöbəsində il ərzində ölkə ərazisində fəaliyyət göstərən ümumrespublika teleradio yayımçılarının mütəmadi monitorinqi aparılır.**

Görülən işlərin nəticəsi olaraq Şura sədrinə ölkə teleməkanı barəsində mütəmadi olaraq arayışlar və müəyyən dövrlər üzrə ümumiləşdirilmiş hesabatlar təqdim edilir.

**Azərbaycan teleməkanlarında əcnəbi seriallara qarşı antipatiyanın səbəblərini ”Şərq”ə açıqlayan media eksperti Zeynal Məmmədli bildirib ki, məsələnin siyasi tərəfləri var:**

”Azərbaycan telekanallarında əcnəbi seriallarla bağlı nəzarətin gücləndirilməsinə əsas səbəb dövlətin, xalqın həyata, dünyaya baxışlarından qaynaqlanır. Bu məsələdə siyasi məqamlar da var.

Əksər serialda siyasi mesajların ötürüldüyünə şahid oluruq. Həmçinin xarici serialların bizim mentalitetə uyğun olmadığı düşünülür. Bəzi filmlər missioner fəaliyyəti göstərir, xristian dəyərlərin təbliğatını aparırlar.

Buna görə də Azərbaycan televiziyalarında yayımlanmasının qarşısı alınır. Yenə də məsələnin ciddi araşdırılmasına ehtiyac var. Hələ MTRŞ-nin filmlərin ”filan vaxtda göstərilsin, filan qədər göstərilsin” kimi qanunları özünütəcrid siyasətinə bənzəyir. Multikulturalizmdən danışırıqsa, buna tam əməl etməliyik.

Digər tərəfdən televiziyaların maddi imkanları da azdır. Ona görə də seriallar oğurluq yollarla əldə edilir. Sərbəst bazar yoxdur. Əcnəbi serialların qarşısını almağa çalışırlarsa, yerli seriallar hazırlanmalıdır.

Düzü, yerli serialların çəkilməsi üçün kifayət qədər maliyyə ayrılmışdı. Lakin nəticədə biabırçı iş ortaya çıxardılar. Heç Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə aid yaxşı film də çəkə bilmədilər.

Halbuki filmdə 1920-ci ildə Azərbaycan-Ermənistan savaşlarına aid yaxşı səhnə çəkilişləri aparıla bilərdi. Xəbər yayılıb ki, Türkiyə ilə Azərbaycan birgə filmlər, seriallar çəkə bilər. Bunun nəticəsində yaxşı kadr hazırlamaq imkanı yaranacaq”.

**Xanlar ƏLİBƏY**

**Elan**

Azkomund Servis MMC, Aqrar Servis MMC-yə məxsus möhürlər itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-**MÜHASİBAT** (2 AY)
-**Mobil telefonların təmiri** (3 ay)
-**KOMPYUTER** (1-3 AY)
-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
-**Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

# "Ölümün yaşı cavanlaşıb"

## Təranə Həsənova: “Beyin-qan dövranı pozulur deyə nəinki uşaq, ana da ölür”



**Siyəzəndə 33 yaşlı qadın və bətnindəki körpə ölüb. Hadisə rayon ərazisindəki xəstəxanada qeydə alınıb. Şəbnəm Zeynalova yaşadığı Yenikənd kəndindəki evdən 38 həftəlik hamiləliklə xəstəxanaya çatdırılıb. Yaranmış ağrılardan Ş.Zeynalova və bətnindəki övladı ölüb.**

Faktla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır.

**Doğuş zamanı baş verən ölüm halları barədə ”Şərq”ə danışan həkim-ginekoloq Təranə Həsənova bildirib ki, hamiləlik əvvəl başqa adlanırdı:**

”İndi isə eklampsiya və preeklampsiya hamiləliyin ən qorxulu xəstəlikləri sayılır. Qadınların yavaş-yavaş əli, üzü şişir, arterial təzyiq qalxır. Bunu başa düşmürlər. Daha çox 30-cu həftədən sonra rast gəlinir. Həkimlər məhz bunu nəzərdə tuturlar. Qadında zülal çox yüksək həddə çatır. O da uşağı bətndə inkişafdan qoyur. Qan dövranını demək olar ki, pozur. Amma xaricdən baxdıqda hər şey öz qaydasında görünür. Qadın xəstəxanaya daxil olarkən baxırlar ki, arterial təzyiq məsələn, 180, aşağısı isə 110-dur. Pasiyentin yaxınları həkimi günahlandırırlar. Deyirlər ki, xəstənin heç nəyi yox idi, öz ayağı ilə gətirmişdik. Həkimlər arterial təzyiqi aşağı salmağa cəhd etsə də, bəzən alınır. Bəzi hallarda isə alınmır. Beyin-qan dövranı pozulur deyə nəinki uşaq, ana da ölür. Bu, tez-tez rast gəlinən və ən ağır patologiya sayılır. Bundan başqa digər daxili orqanların xəstəlikləri də mövcuddur. Onlar xaricdən bilinmir. Problemlər də buradan yaranır”.

### *"Əməliyyat otağı rayonlarda daim hazır vəziyyətdə deyil"*

**T.Həsənova qeyd edib ki, həkim səhlənkarlıq edərək doğuş zamanı uşağın gəlişinə fikir verməyə bilər:**

”Körpənin müxtəlif - baş, çanaq, köndələn, çəp və s. gəlişləri var. Əgər həkim bunlara diqqət yetirməzsə, doğuşun gedişatında özünəməxsus ağırlaşmalar ola bilər. Bildiyimiz kimi ölümün yaşı cavanlaşıb. Bunun səbəbi bir həkim kimi mənə məlum deyil. Hamilə qadın normal vəziyyətdə doğum şöbəsinə qəbul olur, doğum sancıları çəkir. Qəflətən uşağın ürək döyüntüsü ana bətinində pisləşir. Həkim 80 faiz səbəbi anlaya bilmir. Belə olduğu halda xəstənin yaxınları yenə də həkimi suçlayır. Ancaq həkim problem olduğunu anlayanda və həkimin əlində imkan olarsa, əməliyyat otağı açıqdırsa, xəstəni otağa aparır. Çatdıra bilirsə, uşağı qeysəriyyə əməliyyatı edir. Məsələn, əməliyyat otağı bildiyimə görə rayonlarda daim hazır vəziyyətdə deyil. Müəyyən qədər vaxt itirmə ola bilər. Yaxud da bunların heç biri yoxdur. Həkim biganə yanaşır. Vaxtında pasiyenti dinləmir. Aydın məsələdir ki, belə olduqda ana da,uşaq da itiriləcək”.

**Sücayət Mehti**

# Bakcell 3 il ərzində ölkəyə 226 milyon manat həcmində sərmayə yatırıb




**Bakcell şirkətinin son 3 il ərzində Azərbaycan iqtisadiyyatına yatırdığı sərmayənin həcmi 226 milyon manat təşkil edir.**

Şirkətin fəaliyyətinin davam etməsinə və inkişafına yönəlmiş bu sərmayələr uzunmüddətli perspektivdə ölkənin ümumi daxili məhsulunun həcminə də töhfə verəcək.

Qeyd olunan məbləğin böyük hissəsi telekommunikasiya infrastrukturunun təkmilləşdirilməsinə, regionlarda 4G şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsinə və Qarabağda yüksək keyfiyyətli mobil şəbəkənin qurulmasına xərclənib.

Eyni zamanda genişmiqyaslı Korporativ Sosial Məsuliyyət proqramı həyata keçirən Bakcell şirkəti 3 il ərzində bir sıra sosial layihələrə böyük həcmdə vəsait ayırıb. Buraya şirkətin pandemiya ilə mübarizəyə, İkinci Qarabağ Müharibəsinin təsirlərinin azaldılmasına, Qarabağda bərpa işlərinin aparılmasına və əlilliyi olan uşaq və gənclər üçün bərabər imkanların yaradılmasına yönəlmiş layihələr daxildir.

Bakcell şirkəti ölkədə telekommunikasiya sahəsinin inkişafına öz töhfəsini vermək üçün gələcəkdə də Azərbaycan iqtisadiyyatına iri həcmi sərmayələr yatırmağa davam edəcək. 2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən ”Azərbaycanın ən sürətli mobil şəbəkəsi” adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 8700-dən çox baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.4%-ni əhatə edir.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2811



## Bakının ən çirklənmiş ərazisi Lökbatandır

**Bakı şəhərində ən çox çirklənən ərazi açıqlanıb.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib.

O qeyd edib ki, 2021-ci ildə havanın ən çox çirklənməsi Lökbatanda qeydə alınıb:

"Bu da nəqliyyat hərəkətinin həmin ərazidə çox olması ilə əlaqəlidir".

U.Tağıyeva əlavə edib ki, çirklənmə göstəricisi ən çox isti dövrdə müşahidə olunur.

## Britaniya kraliçasının hakimiyyətinin 70 illiyi ilə bağlı xüsusi sikkə hazırlanıb



**Böyük Britaniyanın Kral Sikkə Evi 2022-ci ildə kraliça II Elizabetin hakimiyyətinin 70 illiyi münasibətilə 50 pens dəyərində unikal sikkə hazırlayıb.**

Trend-in məlumatına görə, kraliça sikkənin təsviri ilə bağlı razılığını verib.

Qeyd olunur ki, sikkənin üzərində kraliçanın inisialları ilə yanaşı 70 rəqəmi və 1952-2022 yazıları həkk olunacaq.

Bundan başqa, gələn ilin iyununda kraliçanın taxta çıxmasının 70 illiyi ilə əlaqədar irimiqyaslı bayram tədbirlərinin keçirilməsi planlaşdırılır.

*II Elizabet 1952-ci ildə 25 yaşında taxta çıxıb.*

## Nəhəng canlı sürətlə evə girib

### Nənə televizora baxarkən qorxu yaşadı



**Tailandda evdə baş verən qorxulu hadisə müşahidə kamerası tərəfindən lentə alınıb.**

**Metbuat.az xəbər verir ki, ailə üzvləri evdə olarkən uzunluğu 1 metr yarım olan nəhəng kərtənkələ evə girib. Bu zaman ailə üzvləri böyük həyəcan yaşayıb. Kərtənkələ televizor izləyən yaşlı qadının ayaqlarının yanından keçərək, digər otaqlara şığıyıb. Kərtənkələni ayaqlarının yanında görən nənə uzun müddət özünə gəlməyib. Bir müddət evdə gəzən kərtənkələ ardınca həyətə çıxıb. Hadisə zamanı xəsarət alan olmayıb.**

## Ördək Pələnglə "gizlənqaç" oynadı

### Görüntülər böyük maraq doğurub



**Sosial şəbəkələrdə hiyləgər ördəyin onun ovuna çıxan pələnglə "gizlənqaç" oynaması görüntüləri böyük maraq doğurub.**

**Oxu.az xəbər verir ki, 46 saniyəlik videoda pələngin suda ördəyin üstünə getməsi, ancaq yırtıcı həmlə etməmiş ördəyin suya dalması və bir müddət sonra başqa yerdə çıxması görünür. Ördək öz hərəkətlərini bir neçə dəfə təkrarlayır. Bütün bu müddət ərzində pələng onu izləməyə çalışır.**

**Görüntülər sosial şəbəkələrdə virus kimi yayılıb. Bəzi istifadəçilər kadrları çox gülməli görüb, digərləri isə ördəyi möcüzənin xilas etdiyini deyib.**

**"Tarixin ən təhlükəli "gizlənqaç"ı. Bilmək istərdim ki, ördək qaça bilibmi?..", - deyə onlardan biri yazıb. "Pələng yeməklə oynamır. Yeməyi onunla oynayır", - deyə başqa biri zarafat edib.**

## Məşhur repçi keçmiş arvadına 100 milyon dollar ödəyəcək



**Amerikalı məşhur repçi Dr. Dre 24 illik keçmiş həyat yoldaşı Nikol Yanqa 100 milyon dollar ödəyəcək.**

**Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, məhkəmənin qərarına əsasən, Nikol məbləğin yarı hissəsini bu il, 50 milyon dolları isə 2022-cil ildə alacaq.**

**Bundan əlavə, ailəyə məxsus olan 10 avtomobildən 4-ü repçinin keçmiş arvadına veriləcək.**

**Qeyd edək ki, cütlüyün bu nikahdan 2 övladı var. Nikolun ərindən xəyanətə görə boşandığı deyilir.**







# Evli insanlar ürək xəstəliyinə tutulmur

### Subay insanların ürək-damar xəstəliklərinə tutulma və bu xəstəlikdən ölüm riski evli olanlara nisbətən 52 faiz daha artıqdır



**Məlahət Rzayeva**

**ABŞ-da aparılmış bir araşdırma maraqlı mənzərə ortaya çıxarıb. Məlum olub ki, subay insanların ürək-damar xəstəliklərinə tutulma və bu xəstəlikdən ölüm riski evli olanlara nisbətən 52 faiz daha artıqdır.**

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, bu barədə kordioloq, dosent doktor Yiğit Çanga məlumat verib. Y.Çanga qeyd edib ki, araşdırma evli olmaq, ailə içində yaşamağın ürək sağlamlığına təsirini öyrənmək məqsədi ilə aparılıb. Ürək-damar xəstəliyi diaqnozu qoyulmuş və ya ürək xəstəlikləri səbəbiylə yüksək risk altında olan, yaşı 63 olan 6 min 51 nəfər 4 il müşahidə altında saxlanılıb. 4 illik araşdırmanın nəticəsində məlum olub ki, subay insanlar - heç evlənməmiş və ya boşanmış, həyat yoldaşını itirmiş şəxslər (3 min 256 nəfər) ürək-damar xəstəliklərinə daha çox tutulur və ölüm riski daha yüksəkdir. Tədqiqatda cinsiyyət fərqi də görünməyib. Subay kişilərlə qadınlar eyni dərəcədə risk altındadır. Y.Çanga boşanmış şəxslər haqqında bunları söyləyib: "Boşanmaq, insanların həyatında mənəvi, həm də maliyyə stresinə səbəb olan önəmli dəyişiklikdir. Heç evlənməmiş insanlarla müqayisədə boşanmış olanlar daha artıq risk altındadır. Boşanmış insanların yaşadığı stres ürək-damar sisteminə mənfi təsir edir və xəstəlik riski artır. Boşandıqdan sonra təkrar evlənmək isə bu riski azalda bilər. Evli olanlar subaylara nisbətən daha rahat, düzgün həyat tərzi keçirir. Subay insanların həyatı isə sosial dəstək əskikliyi ilə müşayiət olunur. Bu da qeyri-sağlam həyat tərzinə gətirib çıxarır. Xəstəliklər də buradan qaynaqlanır.

Məlahət




# 70 qat artıq yayılır

### Alimlər insanları aldanmamağa çağırır

**Alimlər "Omicron" ştammının "Delta" ştammından 70 qat daha artıq yoluxuculuq gücünə malik olduğunu açıqlayaraq əhaliyə ehtiyatı əldən verməməyi məsləhət görür. "Omicron" variantının qrip və soyuqdəymə əlamətləri daşıdığını deyən alimlər, insanları aldanmamağa çağırır.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, koronavirus pandemiyası başlanan zamandan bugünədək ən yüksək yoluxma sayı məhz 23 dekabr tarixində "Omicron" variantı ilə bağlı qeydə alınıb. Bu statistika yeni variantla bağlı müəmmaları daha da artırır. Türkiyəli alim, professor Mehmet Ceylan mümkün təhlükəyə diqqət çəkərək "qrip və soyuqdəymə arasında bir mənzərə var qarşımızda. Əgər bu varianta yoluxmada ağırlaşma halları müşahidə edilərsə, o zaman fəlakət olacaq", deyib. ABŞ Xəstəliklərə Nəzarət və Önləmlər Mərkəzinin rəsmiləri "Omicron"un ABŞ-dakı koronvirus variantlarının 58,6 faizini təşkil etdiyini bildirib. **Türkiyədə isə yoluxanların hələ ki 10 faizinin "Omicron" əsaslı olması təsdiqlənib. Professor M.Ceylan "Omicron" variantının "Delta" variantına nisbətən daha yüksək yoluxuculuq xüsusiyyətinə malik olduğunun təsdiqləndiyini deyib:** ""Omicron" orqanizmdə 70 qat daha yüksək sürətlə çoxalır. Bu da virusun yoluxuculuğunu artırır. Lakin "Omicron"a yoluxmada xəstəlik daha yüngül keçir. Məhz xəstəliyin yüngül formada müşahidə edilməsi də yanıltıcı ola bilər. Toplumda bir çox insan koronavirusa yoluxub, sağalanlar, peyvənd olunanlar var. Ümumilikdə, immunitet qazananlar çoxdur. Xəstəliyin əvvəlki variantlara nisbətən yüngül keçməsi bu amillərə bağlıdır. Amma xəstəliyin yüngül keçməsi yanıltıcı ola bilər, kimsə "Omicron" yüngül keçir, deyib, ehtiyatı əldən verməməlidir". Alimlər bu fikirdədir ki, yoluxma sürəti nəzərə alınarsa, "Omicron" variantına yoluxmada əvvəlki variantlardan daha yüksək göstəricilərin olması mümkündür. Buna görə yoluxanların sayı da yüksək olacaq.

***"Omicron" qrip və soyuqdəymə əlamətləri daşıyır***

"Omicron" xüsusi əlamətlərə sahib deyil. Əvvəlki variantlarda qarşılaşdığımız iy və dadbilmənin itməsi, yüksək hərarət "Omicron"da görünmür. "Omicron" adi qrip və soyuqdəymə əlamətləri daşıyır: əzginlik, boğaz ağrısı, udlaqda tıxanma, burun axması, asqırma, öskürək...

Xəstənin "Omicron" ştammına yoluxub-yoluxmadığını bilmək adi həkim müayinəsi ilə mümkün deyil. Burada mütləq analizlərin nəticələrinə baxılmalıdır. Bir çox insan yeni varianta yaxalandığını bilmir, xəstəliyini qrip, ya da adi soyuqdəymə zənn edir. Və testdən keçmirlər. Ona görə də yoluxma artır, insanlar bir-birini yoluxdurur. İnsanlar virus aşkarlanacağı təqdirdə evə qapanmadan qorxaraq testdən keçmək istəmirlər. Bu da yoluxmanı artıran faktordur. "Omicron" daha çox gənclər arasında yayılıb. Çünki gənclərin əksəriyyəti peyvənd olunmayıb. Professor qeyd edib ki, müsbət proqnozlara köklənsək, "Omicron"un qrip və ya soyuqdəymə şəklini alacağını söyləmək olar, ən pis senari isə yoluxmanın sürətlə artacağı və xəstəxanaların yenə dolacağıdır. Özümüzü pis senarilərə hazırlamalıyıq. "Ümid edirik, bu gerçəkləşməz".

**Məlahət Rzayeva**

## Əhalinin məsuliyyəti vacib şərtdir

### "Yeni ştam Azərbaycana da gələcək, buna hazırlıqlı olmalıyıq"



**"Hər yeni ştam əvvəlkindən ən azı yoluxuculuq sürətinə görə fərqlənir. Yay aylarında "Delta" ştamı sürətlə yayılırdısa, artıq yeni "Omicron" ştamı yayılmağa başlayıb. Bəzi ölkələrdə, o cümlədən, bizim qonşularda da yayılır və dominant ştama çevrilir".**

Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov ölkədəki epidemioloji vəziyyəti qiymətləndirərkən deyib. O bildirib ki, yeni ştam Azərbaycana da gələcək və buna hazırlıqlı olmalıyıq:

"Omicron" ştamı Azərbaycana da gələcək. Biz bunun üçün nə etməliyik? Bunun üçün əlavə üsul icad olunmayıb. Əhalinin məsuliyyəti vacib şərtdir. 2 il ərzində dediyimiz qaydalara əməl olunmalı, sıxlıq olan yerlədə az toplaşmalı, maskalardan istifadə etməli, otaqlarda havanı tez-tez dəyişdirməliyik. Bu qaydalara əməl olunsa, əhali vaksinasiyada iştirak etsə, buster doza vurulsa, xəstələnmə hallarının, ağırlaşma hallarının azalmasına gətirib çıxara bilər. Bütün dünyada virusların qarşısı vaksinasiya yolu ilə alınır".

## Atalara da diqqət artırıldı

### Kişilər atalıq məzuniyyətinə çıxa bilər



**Bu məsələ illərdir müzakirə olunur. Söhbət atalıq məzuniyyətindən gedir. Necə ki uşaq doğulanda işləyən qadınlara ödənişli məzuniyyət verilir, eləcə də kişilərə verilməlidir deyilir. Bəs verilirmi? Necə olmalıdır?**

Xəzər TV xəbər verir ki, qanunvericilikdə hamiləliyə görə qadınların analıq məzuniyyəti hüquqları var. Bu ödənilşi məzuniyyət həm də toxunulmazdır. Ancaq bəzi ailələrdə qadınlar uşaq dünyaya gəldikdən sonra onu saxlamaqda çətinlik çəkirlər. Ya tək olurlar, ya da sağlamlıqları buna imkan vermir. Belə halda kişilər məcbur olub ödənişsiz məzuniyyət götürməli olurlar. Çünki, məcəllədə atalıq məzuniyyəti nəzərdə tutulmayıb. Bu da həmin ailələrin birbaşa gəlirlərinə təsir edir.

Hüquqşünas Anar Ramazanovun sözlərinə görə, qanunverivilikdə atalıqla bağlı xüsusi məzuniyyət olmadığından, həmin kişilərə sadəcə 14 günlük ödənişsiz məzuniyyət verilir. Millət vəkili Fazil Mustafanın fikrincə isə, bu məzuniyyət növü kişilər üçün də ödənişli olmalı və qanunvericilikdə bu istiqamətdə dəyişiklik aparılmalıdır.

Millət vəkilinin sözlərinə görə, ödənişli atalıq məzuniyyəti həmdə ailənin sosial vəziyyətinə görə təyin edilməlidir.

Fazil Mustafa deyir ki, belə ailələrin vəziyyəti müvafiq qurumlar tərəfindən öyrənilməli, yalnız bundan sonra onlara müvafiq formalarda dəstək verilməlidir.